www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 26-27 iyun 2024-cü il Çərşənbə № 109 (8482) Qiyməti 60 qəpik

Xəbər

**Sertifikasiyanın son nəticələri - dörd mindən çox müəllim...**

yazısı səh.14-də

Gündəm

**Qalib Azərbaycan Ordusunun haqq etdiyi bayram**



Vətən müharibəsində ordumuzun qələbəsi dünya hərb elminin tarixində mühüm izlər qoydu

yazısı səh.7-də

**İrəvan Rusiyanın Qafanda konsulluq açmasına qarşı**

yazısı səh.4-də

**Əlillərə verilən avtomobillərin satılması qadağan olundu**

yazısı səh.2-də

**Avropa Sülh Fondu anti-Azərbaycan siyasətini dəyişə bilər**

yazısı səh.8-də

**Təhsilimizin "üz qarası" kimi statistika**

yazısı səh.6-da

**Sülh sazişindən əvvəl "Avroreferendum" planı**

yazısı səh.9-da

**Parlament büdcəyə dəyişiklikləri təsdiqlədi**

yazısı səh.10-da

**Müxalifət seçkiyə ittifaq qurmadan gedir**

yazısı səh.11-də

**Paşinyanın "atəşkəs komissiyası" təklifi - orduya nəzarət edə bilmirsə...**

yazısı səh.5-də

**Gürcüstan indi də LGBT qadağasına görə hədəfdə**

yazısı səh.15-də

**Hacı Salman niyə həbs edildi?**

yazısı səh.3-də

# BAKIDA "NÜRNBERQ MƏHKƏMƏSİ"NƏ HAZIRLIQ

Qarabağdakı xunta rejiminin liderləri istintaqda hansı etirafları ediblər; onlar da Hitler Almaniyasının nümayəndələri kimi sülhə qarşı sui-qəsd planlarında və müharibə cinayətlərində ittiham olunurlar - separatçılara ən ağır cəza verilməsi tələb olunur

yazısı səh.4-də



# Abutalıbov rəsmi ittihamlara niyə susur?

Mədəniyyət Nazirliyinin Bakıda yerləşən bir sıra tarixi binalarda aparılan təmir-bərpa və abadlıq işlərinin sərt tənqidinə sabiq mer reaksiya vermir; **xalq artisti:** "Qax rayonunun Sarıbaş, İlisu kəndlərindəki villalarında oturub..."

yazısı səh.12-də



*Zahid Oruc:*

**"Yaxın 3 ayda həlledici döyüş olacaq"**

yazısı səh.9-da



**Beş nəfəri öldürən Əhmədin məhkəməsində qalmaqal**

yazısı səh.3-də



**Əhəd Abıyev Daşkəsəndəki həbslərdən danışdı**

yazısı səh.3-də



## Əlillərə verilən avtomobillərin satılması qadağan olundu

**Əlilliyi müəyyən edilmiş şəxsə verilən reabilitasiya vasitələrinin satılması və bağışlanması qadağan edilib. Baş nazir Əli Əsədov bununla bağlı "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda dəyişiklik edilməsi barədə qərar imzalayıb.**

Belə ki, sənədə yeni bənd əlavə olunub. Qeyd edilib ki, bu Qaydanın 3.14-cü bəndində nəzərdə tutulmuş hal istisna olmaqla, şəxsə verilmiş reabilitasiya vasitələrinin satılması və ya bağışlanması qadağandır.

Qaydanın 3.14-cü bəndi isə belədir: Minik avtomobili verilmiş şəxs vəfat etdikdən sonra avtomobil onun ailə üzvündən birinin adına keçirilməklə qeydiyyatdan çıxarılır və vəfat etmiş Şəxsin ailəsinin mülkiyyətinə verilir.




## DSX və DTX birgə əməliyyat keçirdi

**Dövlət Sərhəd Xidməti və Dövlət Təhlükəsizliyi Xidmətinin birgə keçirdiyi əməliyyat tədbirləri nəticəsində Xəzər dənizindən dövlət sərhədini pozmaqla Azərbaycan ərazisinə külli miqdarda narkotik vasitəni keçirməyə cəhd göstərən mütəşəkkil qaçaqmalçı qrupun üzvləri saxlanılıb.**

Bu barədə Dövlət Sərhəd Xidmətinin (DSX) mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, iyun ayının 25-də saat 00:17-də Sahil Mühafizəsinin Baş Komanda Nəzarət Mərkəzi tərəfindən Xəzər dənizinin Xızı rayonu ərazisində sahildən 500 metr məsafədə Şorabad qəsəbəsi istiqamətində sürətlə hərəkət edən 2 ədəd naməlum üzmə vasitəsi müşahidə edilib.

Aşkarlanmış hədəflərin saxlanılması məqsədilə dövlət sərhədinin mühafizəsində olan sərhəd gözətçi gəmisi tərəfindən təqibetmə əməliyyatına başlanılıb, sahil nəzarəti bölmələri aidiyyəti üzrə məlumatlandırılıb və sahil xəttinin qapadılması üzrə təxirəsalınmaz tədbirlər görülüb. Nəticədə layner tipli itisürətli üzmə vasitələrindən biri 2 nəfər heyət üzvü ilə birlikdə, ikinci üzmə vasitəsinin isə heyət üzvlərindən biri saxlanılsa da digəri itkin düşüb.

Gəmi heyəti tərəfindən yaralı sərhəd pozucularına ilkin tibbi yardım göstərildikdən sonra ixtisaslaşmış tibb müəssisəsinə təxliyə ediliblər.

Araşdırma zamanı saxlanılan şəxslərin İran vətəndaşları Gülüstan əyalətinin Bender-Türkmən şəhər sakinləri 1984-cü il təvəllüdlü Behman Qasim, 1983-cü il təvəllüdlü Nuri Nurməmməd Bəhrəmxalid, 1984-cü il təvəllüdlü Rəhim Ounek Anna olduqları, dövlət sərhədini narkotik vasitələri qeyri-qanuni yolla ölkə ərazisinə keçirmək məqsədi ilə pozduqları müəyyən edilib.

Davam edən əməliyyat tədbirləri nəticəsində İranın mütəşəkkil qaçaqmalçı qrupunu qarşılamaq niyyəti ilə həmin əraziyə dənizin sahilinə gəlmiş Azərbaycan vətəndaşları 1982-ci il təvəllüdlü Əliyev Elxan Nadir oğlu və 1976-cı il təvəllüdlü Memmədova Esmira Gülağa qızı saxlanılıb.

Hazırda Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin sərhəd gözətçi gəmiləri və dalğıclar tərəfindən digər itkin düşmüş sərhəd pozucusu İran İslam Respublikası vətəndaşı 1985-ci il təvəllüdlü Həmid Vəkilinin və dənizə atılmış digər maddi sübutların axtarışı həyata keçirilir.

# Azərbaycanda yumurta bahalaşacaq?




**"Hazırda Azərbaycandan Rusiyaya yumurta ixracı azalıb". Bunu "Trend"ə açıqlamasında "Azərbaycan Quş əti, Yumurta İstehsalçıları və İxracatçıları Assosiasiyası" İctimai Birliyinin sədri Mürvət Həsənli deyib. O bildirib ki, ötən aylarda Rusiyaya ixracımız 75 maşın idi:**

"Bu ay isə 5-15 maşın arası yumurta ixrac edilir".

Sədr ölkəmizdə yumurtanın qiymətinin artacağı ilə bağlı xəbərlərə də toxunub: "Yumurta bahalaşmayacaq. Çünki ölkədə istehsal edilən yumurta tələbatımızdan çoxdur. Bu gün üçün ölkədə yumurtaya olan tələbat günlük 3 milyon civarındadır. İstehsal isə 4,5 milyona yaxındır. Bu səbəblərdən də yumurtanın qiymətində artım olmayacaq. Bazarda yumurta artıqlığı var. Keçən ilin müvafiq dövrünə nisbətən olan qiymətdir. Hazırda yumurtanın qiyməti 16-17 qəpikdir".

M.Həsənli qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə toyuq fermaları, xüsusən ətlik, süfrə yumurtası və damazlıq yumurta istehsalı fermaları açmaq olar.

"Bununla bağlı həmin ərazilərdə olduq. Lakin həmin fermalar sovet dönəmindən qalıb. Sökülüb təzədən tikilməlidir", - deyə o qeyd edib.



## Ərdoğan Putinlə danışdı

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya prezidenti Vladimir Putin arasında telefon danışığı olub. Bu barədə Türkiyə Prezident Administrasiyası məlumat yayıb. Məlumata görə, telefon danışığı zamanı Rusiyanın Dağıstan vilayətində törədilən terror aktları müzakirə olunub.**

Ərdoğan Türkiyənin hər cür terrora qarşı olduğunu və hücumları nifrətlə qınadıqlarını ifadə edərək, həyatını itirənlərə görə Rusiya xalqına başsağlığı verib, yaralılara tezliklə şəfa diləyib.

Türkiyə prezidenti bölgədə bütün çalışmaların sona çatdırılması üçün səy göstərəcəyini vurğulayıb.

## Küləkli hava şəraiti ilə bağlı xəbərdarlıq



**İyunun 26-27-də ölkənin bəzi rayonlarında gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıq edilib.**

Milli Hidrometeorologiya Xidmətindən Modern.az-a verilən məlumata görə, əksər bölgələrdə sarı xəbərdarlığa uyğun olaraq küləyin sürətinin 13.9-20.7 m/san olacağı gözlənilir.

Tovuz, Şəmkir, Gəncə, Daşkəsən, Bərdə, Tərtər, Goranboy, Naftalan, Yevlax, Göyçay, Ordubad, Mingəçevir, Zərdab, Salyan, Sabirabad, Şirvan, Hacıqabul, Neftçala, Xızı, Qobustan, Cəbrayıl, Cəlilabad, Lənkəran rayonlarında isə narıncı xəbərdarlığa uyğun olaraq küləyin sürəti 20.8-28.4 m/san təşkil edəcək.

Bakıda və Abşeron yarımadasında da iyunun 26-sı səhərdən 27-si səhərədək küləyin sürətinin narıncı xəbərdarlığa uyğun olaraq 20.8-28.4 m/san təşkil edəcəyi gözlənilir.

Belə küləkli hava şəraitində əhaliyə ehtiyatlı olmaları, təhlükəsizlik qaydalarına əməl etmələri tövsiyə olunur.

## Paytaxtın bu yollarında avtobusların hərəkəti məhdudlaşdırıldı



**Bakının yollarında aparılan təmir işləri ilə əlaqədar iyulun 1-nə qədər nəqliyyat vasitələrinin hərəkəti Afiyəddin Cəlilov küçəsində (Yusif Səfərov küçəsindən Xəqani Rüstəmov küçəsinə qədər), Parlament prospektində (Mehdi Hüseyn küçəsindən Mikayıl Müşfiq küçəsinə qədər) və Azadlıq prospektində (Mixail Kaveroçkin küçəsindən Cəfər Xəndan küçəsinə qədər) qismən məhdudlaşdırılıb.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) istinadən xəbər verir.

Məlumata görə, Afiyyəddin Cəlilov küçəsində 4, 10, 21, 32, 46 və 175 nömrəli müntəzəm marşrutların sxemi dəyişdirilərək avtobusların hərəkəti Xəqani Rüstəmov (Ağ şəhər) və Süleyman Vəzirov küçələri ilə təşkil edilib.

Parlament prospektində fəaliyyət göstərən 18, 39, 205 nömrəli və Azadlıq prospektində fəaliyyət göstərən 4, 6, 17, 26, 33, 83, 85, 88, 88A, 133 və 165 nömrəli müntəzəm avtobus marşrutlarının sürücülərinə hərəkətdə olarkən diqqətli olmaları, təmir aparılan küçələrdə quraşdırılan müvəqqəti yol nişanlarının tələblərinə riayət etmələri xahiş olunur.

## Bakıda orta əməkhaqqı 10%-ə yaxın artıb



**Bu ilin yanvar-aprel aylarında Bakıda muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 1 min 282,6 manat təşkil edib.**

Bu barədə Bakı şəhər Statistika İdarəsindən məlumat verilib.

Bildirilib ki, paytaxtda orta aylıq əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 9,4% artıb.

Qeyd edək ki, bu ilin yanvar-aprel aylarında Azərbaycanda muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı 2023-cü ilin müvafiq dövrünə nisbətən 10,2% artaraq 1 min 007,5 manata çatıb.



## Şəxsiyyəti müəyyənləşdirilən daha səkkiz şəhid dəfn ediləcək

**Birinci Qarabağ müharibəsində itkin düşmüş və şəxsiyyəti müəyyənləşdirilən daha səkkiz şəhidin dəfn ediləcəyi yer və tarix məlum olub.**

"Report" məlumat verir ki, iyunun 27-də Baratov Hörmət Beytulla oğlu, Ağayev Şahlar Hüseynağa oğlu və Qasımov Adıgözəl Əmirsoltan oğlunun cəsədlərinin qalıqları Xaçmazda dəfn olunacaq.

Elə həmin gün Zeynalov Ucar Fidail oğlunun qalıqları Göygöl rayonunda, Əsgərov Əhliman Vahid oğlunun cəsədlərinin qalıqları isə Şəmkirdə dəfn ediləcək.

İyunun 28-də isə digər şəhidlər - Cavadov Elman Xurşud oğlu Sumqayıt Şəhidlər Xiyabanında, Əbdürəhmanov Yasin Şakir oğlu Ağdaş rayonunun Qaracan-Şıxlar kəndində, Yaqubov Fəqan Misir oğlu isə Tərtər rayonunun Sarıcalı kəndində torpağa tapşırılacaq.

# Həbsdəki sabiq icra başçısının "Qarabağı tikmək" arzusu niyə alınmadı?

## Alimpaşa Məmmədovun 10 milyonluq əmlakı özünə qaytarıldı

**Xəbər verildiyi kimi, Şəmkir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Alimpaşa Məmmədov 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə sabiq icra başçısının iki əmlakı üzərindən həbs qərarı götürülüb. Bunlar bazar dəyəri 8 milyon 270 min manat qiymətləndirilən "Azfarel" MMC balıqyetişdirmə və emalı müəssisəsi və 1 milyon 335 min manatlıq "Abad Şəmkir" MMC-yə məxsus daşınan və daşınmaz əmlaklardır. Alimpaşa Məmmədovun Bakıda yerləşən 676 min manatlıq iki mənzili isə dövlət nəfinə müsadirə edilib.**

Alimpaşa Məmmədovun məhkəmədə son söz deyərkən səsləndirdiyi fikirlər müzakirələrə səbəb olub. Belə ki, 7 il icra başçısı işləmiş Alimpaşa Məmmədov son sözündə məhkəmədən ona yüngül cəza təyin edilməsini, hansısa şərtlə azadlığa buraxılmasını xahiş edib. O, xahişini iş üzrə dəymiş ziyanın ödənilməsi, şikayətçinin olmaması ilə əlaqələndirib. Alimpaşa Məmmədov azadlığa çıxmaq istəməsinin əsas səbəbini işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərində iştirak etmək arzusu ilə əlaqələndirib: "Mən 3 ildən çoxdur həbsdə yatıram. İşləyən adamam, içəridə dayana bilmirəm. Ən əsası isə Qarabağda aparılan quruculuq işlərində iştirak etmək istəyirəm. Xahiş edirəm, məni buraxın, azad olunmuş ərazilərin yenidən dirçəlməsinə faydam olsun. Vəssalam! Son sözüm bundan ibarət idi".



**Alimpaşa Məmmədovun səsləndirdiyi fikirlərlə bağlı Bakupost.az-a açıqlama verən tanınmış ictimai xadim Rəşid Mahmudov bu barədə vaxtında düşünməli olduğunu bildirib. Rəşid Mahmudov həbsdə olan sabiq icra başçısına cəza verilməsinə tərəfdar olduğunu deyib:** "Bu əməlləri edən məmur uşaq deyil ki, bunu bilməyərəkdən etdiyini desin. O adam maral ferması saxlayanda, dövlətin pulu ilə özünə topdağıtmaz mülklər, avtomobillər alanda başa düşməliydi ki, bu, qanunsuzluqdur, buna yol vermək olmaz. Neftçalanın həbsdə olan keçmiş icra başçısı İsmayıl Vəliyev də eşşək ferması açmışdı. Bilmirsən, bunlar fermerdir, yoxsa icra başçısı?! Axı bir gün adamdan bunun hesabını sorurlar".

**Seymur Verdizadə isə mövzu barədə bunları yazıb:** "Yaxşı ki, Azərbaycanda qanunlar işləyir. Yaxşı ki, yalançıların və talançıların Qarabağda uzanan yolunun qarşısında dəmir barmaqlıqlar var. Onlar Qarabağa həmin barmaqlıqlar arxasından baxsalar yaxşıdır..."

Qeyd edək ki, Alimpaşa Məmmədov 7 il Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləyib. O, 29 aprel 2021-ci ildə Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən cinayət məsuliyyətinə cəlb edilib. A.Məmmədov korrupsiya cinayətlərində ittiham olunur. Həmin vaxt çoxşaxəli biznes fəaliyyəti ilə məşğul olduğu deyilən Alimpaşa Məmmədovun maral fermasının olması isə cəmiyyətdə geniş müzakirələrə səbəb olmuşdu. Alimpaşa Məmmədova oxunan hökm nə qədər ədalətdir? Bəs həbsdəki icra başçısı niyə Qarabağa can atır və əgər müharibə zamanı olsaydı, döyüşə gedərdimi?

**AG Partiya sədri Tural Abbaslı "Yeni Müsavat"a deyib ki, Alimpaşa Məmmədov "boğazdan yuxarı" danışır, səmimi deyil:** "Alimpaşa Məmmədovun müraciəti qeyri-səmimi olmaqla yanaşı, həm də qeyri-hüquqidir. Məhkəmə istəsə belə onu açıb buraxa bilməz. Alimpaşa Məmmədov özü də bunu bilir, amma populist çıxışından da qalmır. Bu çıxış həm də məmur olaraq bu insanların kafasının hansı səviyyədə olduğunu göstərir".

**Tural Abbaslı Alimpaşa Məmmədova qanunun ən sərt üzünün göstərilməsinə tərəfdar olduğunu da açıqlayıb:** "Şəmkirin altını-üstünə çevirən biri Qarabağda hansı işlər görəcək? Alimpaşa Məmmədov Şəmkirdə törətdiyi cinayətləri boynuna alır və Qarabağda da eyni tərzini davam etdirmək istəyir? Şəmkirdə 300 min manatlıq əmlakı 300 manata oğlu Adil Adilzadənin adına rəsmiləşdirən birindən başqa nə gözləmək olar? Alimpaşa Məmmədov 11 il 6 aylıq cəzasını son gününə qədər çəkməlidir ki, digərləri də onun yolu ilə getməkdən çəkinsinlər".

**Tanınmış hüquqşünas Əkrəm Həsənov da Alimpaşa Məmmədovun məhkəmədəki çıxışını qeyri-səmimi hesab edir:** "Qarabağ işğal altında olsaydı və Alimpaşa Məmmədov "göndərin, Qarabağda vuruşum" desəydi, onu haradasa başa düşmək olardı. İndiki halda isə onun çıxışı ciddi qəbul olunmur. Alimpaşa Məmmədovun həbsindən sonra üzə çıxdı ki, o, Şəmkirdə dövlət əmlaklarını oğlu Adil Adilzadənin adına qəpik-quruşa özəlləşdirib. Həmin əmlakların isə real bazar dəyəri 10 milyon manatı aşır. Bəs 2020-ci ildə, Vətən müharibəsi başlananda Alimpaşa Məmmədov oğlu Adil Adilzadəni Qarabağı işğaldan azad etməyə göndərmişdimi? Yoxsa ölkə sərhədlərindən uzaqlara yollamışdı? İndi, həbsə düşəndə Qarabağ yada düşüb? Bu qədər qeyri-səmimilik elə Alimpaşa Məmmədova yaraşır".

**Əkrəm Həsənov deyib ki, Azərbaycanda məmurlar gəlir bəyannaməsi vermədikləri müddətdə dövlət əmlakının, dövlət büdcəsindən ayrılan 100 milyonlarla manatın mənimsənilməsi də davam edəcək:** "Alimpaşa, onun kimi vəzifədə olub dövlət büdcəsindən ayrılan milyonları mənimsəyən hər kəs yaxşı bilir ki, oğurlayacaq, 3-5 il cəza çəkəcək və bir yol tapıb azadlığa çıxacaq. Bundan sonra da gedib oğurladığı milyonları rahat şəkildə özünün bildiyi kimi xərcləyəcək. Bu cür arxayınçılıq, həbs müddətinin az hissəsini çəkib azadlığa çıxacaqlarına əminlikləri oğurluqların miqyasını genişləndirir, dövləti isə bütün mənalarda zəif salır".

Əkrəm Həsənov deyib ki, rüşvət və korrupsiyaya görə həbs olunan hər bir məmur ona verilən cəzanı son günə qədər çəkmədən azadlığa buraxılmamalıdır.

❑ **E.MƏMMƏDƏLİYEV, "Yeni Müsavat"**

# Beş nəfəri öldürən Əhmədin məhkəməsində qalmaqal

## Şəfaqət Bədəlova bacısının öldürülməsi ilə bağlı cinayət işinin düzgün aparılmadığını və qətliamın tək törədilməyini iddia edib

**Bakıda beş ailə üzvünü qətlə yetirməkdə ittiham olunan Əhməd Əhmədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.**

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Səbinə Məmmədzadənin sədrliyi ilə məhkəmənin hazırlıq iclası keçirilib.

İclasda təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilərkən qarışıqlıq yaranıb. Əhməd Əhmədovun xalası, zərərçəkmiş Bikə Əhmədovanın bacısı Şəfaqət Bədəlova etiraz edib. O, prosesdə adının şahid kimi deyil, hüquqi varis kimi tanınmasını istəyib.

Hakim məsələnin iş məhkəmə baxışına veriləndən sonra araşdırılacağını desə də, şahid etiraz edib. Nəticədə qalmaqal yaranıb və şahid məhkəmə zalından çıxarılıb. Bundan sonra proses davam etdirilib.



Sonra hakim Əhməd Əhmədovdan cinayət işinin məhkəmə baxışına göndərilməsinə etiraz edib-etmədiyini soruşub. Əhməd Əhmədov isə cavabında: "Vallah, nə bilim, bilmirəm ki", - deyə cavab verib.

Məhkəmənin baxış iclası iyulun 4-ü saat 12:20-yə təyin edilib. Məhkəmədən sonra Əhmədin xalası Şəfaqət Bədəlova jurnalistlərə açıqlama verib. O, cinayət işinin istintaqının düzgün aparılmadığını və Əhmədin qətliamı tək törətmədiyini iddia edib.

Qeyd edək ki, Ə.Əhmədova Cinayət Məcəlləsinin 120.2.4 (xüsusi amansızlıqla qəsdən adamöldürmə), 120.2.7 (iki və ya daha çox şəxsi öldürmə) və 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə) maddələri ilə yekun ittiham elan olunub, barəsində müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib və Respublika Psixiatriya Xəstəxanasına yerləşdirilib.

# Əhəd Abıyev Daşkəsəndəki həbslərdən danışdı

## "Kim nə hərəkət edirsə, nə cinayət törədirsə, öz cəzasını da alır..."



**Daşkəsən rayonunun sabiq icra başçısı Əhəd Abıyev rayon icra hakimiyyətində keçirilən korrupsiya əməliyyatına münasibət bildirib.**

"Unikal"a açıqlama verən Əhəd Abıyev bildirib ki, əməliyyat nəticəsində saxlanılan məmurları vəzifəyə o təyin etməyib: "Bu işin mənə nə dəxli var? Mənim dövrümdə belə hallar olmayıb. Məsələn, mənim dövrümdə qazi icra hakimiyyətinin qarşısında özünü yandıraraq ölürdü? Xeyr. Bu hadisələr məndən sonra olub.

13 il işləmişəm, rayon da 1-ci yerdə olub. Bir dənə də olsun ərizə, şikayət yox idi. Mən özüm ərizə yazıb təqaüdə çıxmışam. Hazırda Bakıda yaşayıram. Hər gün 5 saat yarım yolu gedib-gəlməməliyəm ki?

Bəziləri yazırlar ki, Əhəd müəllimi də istintaqa çağırıblar. Bunlar yalandır. Mən 1 ildir Daşkəsənin icra başçısı vəzifəsindən kənarlaşmışam. Çox adam vəzifədən gedir. Məgər hamısını çağırırlar ki, filankəs, sən belə eləmisən? Mənim adımı niyə çəkməlidirlər? Kim nə hərəkət edirsə, nə cinayət törədirsə, öz cəzasını da alır. Özləri bilər. Saxlanılan şəxslərlə bağlı qanuni tədbir görəcəklər".

Qeyd edək ki, Daşkəsən Rayon İcra Hakimiyyətində keçirilən əməliyyat nəticəsində memarlıq və tikinti şöbəsinin müdiri Elman Məmmədov və ümumi şöbənin işçisi Yaqub Bayramov saxlanılıb.

Prezident İlham Əliyev ötən ilin iyununda Əhəd Abıyevi Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edib. Daşkəsən Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini müvəqqəti icra edən Vüqar Məmmədovdur.



# Hacı Salman həbs edildi

**İlahiyyatçı Hacı Salman Kamiloğlu saxlanılıb.**

"Qafqazinfo" xəbər verir ki, o, azyaşlı qıza qarşı seksual xarakterli hərəkətlər etməkdə şübhəli bilinir. Belə ki, Hacı Salman barəsində Abşeron Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi açılıb.

Bildirilib ki, hadisə iyunun 22-də saat 19 radələrində Abşeron rayon Masazır qəsəbəsi ərazisində baş verib. İttihama görə, Hacı Salman 11 yaşlı qızı küçədə maşınına dəvət edib və ona qarşı seksual xarakterli hərəkətlər edib. Baş vermiş hadisə kameraya düşüb və qızın yaxınlarının polisə müraciətindən sonra araşdırmalara başlanılıb.

Oxu.az xəbər verir ki, azyaşlı Ağsu rayonunda yaşayırmış və həmin vaxt dayısıgilə qonaq gəlib. Yolda qızın oynadığını görən ilahiyyatçı ona xoş sözlər deyərək, maşına mindirib və yarımtikiliyə aparıb. Daha sonra həmin ərazidə ona seksual xarakterli hərəkətlər edib. Qız qışqıraraq kömək istəyib, azyaşlının dayısı oğlu dərhal hadisədən xəbər tutub və valideynlərini çağırıb.

Abşeron Rayon Məhkəməsi tərəfindən Hacı Salman Kamiloğlu barəsində həbs-qətimkan tədbiri seçilib.

Yeni Müsavat
N 109 (8482) 26 iyun 2024

# Bakıda "Nürnberq məhkəməsi"nə hazırlıq

## Qarabağdakı xunta rejiminin liderləri istintaqda hansı etirafları ediblər; onlar da Hitler Almaniyasının nümayəndələri kimi sülhə qarşı sui-qəsd planlarında və müharibə cinayətlərində ittiham olunurlar - separatçılara ən ağır cəza verilməsi tələb olunur

**Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun separatçı rəhbərləri barəsində olan cinayət işləri yaxın vaxtlarda məhkəməyə göndəriləcək. "Yeni Müsavat"ın verdiyi xəbərə görə, bunu iyunun 24-də baş prokuror Kamran Əliyev deyib. O bildirib ki, artıq 15 nəfərlə bağlı istintaq hərəkətləri başa çatıb:**

"Hazırda təqsirləndirilən şəxslər, vəkillər və zərərçəkmiş şəxslər cinayət işi materialları ilə tanış olurlar. Tanış olma mərhələsi başa çatandan sonra ittiham aktı məhkəməyə göndəriləcək".

Hazırda istintaq təcridxanasında saxlanılan separatçı liderlər - Arkadi Qukasyan, Bako Saakyan, Araik Harutyunyan, sabiq "xarici işlər naziri" Davit Babayan, eləcə də "parlament sədri" David İşxanyan, qondarma "dövlət naziri" Ruben Vardanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və digərləri də Hitler Almaniyasının nümayəndələri kimi sülhə qarşı sui-qəsd planlarında və müharibə cinayətlərində ittiham olunurlar. Separatçı rejimin ümumilikdə 15 nəfər üzvü Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məsuliyyətə cəlb olunub.

Azərbaycanın hüquq-mühafizə orqanları və istintaqçıları erməni separatçılarının ötən 30 illər ərzində Azərbaycan xalqına qarşı törətmiş olduğu hərbi cinayətləri detalları ilə araşdırıb. Azərbaycanlılara qarşı soyqırımda, doğma yurd-yuvalarından qovulmasında, əmlaklarının talan edilməsində və s. kimi cinayətlərdə iştirak edən erməni silahlıları, hərbi cinayətkarlar cəzadan yayına bilməyəcəklər.

Yeri gəlmişkən, iyun ayında Beynəlxalq Qırmızı Xaç Komitəsinin əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkiblər. Bunu BQXK-nın Bakı nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova deyib. O bildirib ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb. Mandatına uyğun olaraq BQXK bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir.

Beləliklə, separatçıların cinayət işi üzrə istintaq materialları tezliklə məhkəməyə göndəriləcək və onların mühakiməsi başlanacaq. Onların istintaqda hansı etiraflar etdiyini də ictimaiyyət o zaman biləcək. Təbii ki, onların həm istintaqa ifadələri, həm məhkəmədə ifadələri, zərərçəkmiş şəxslərin çıxışları böyük maraq doğuracaq. Söhbət 30 il mövcud olmuş, heç bir dövlətin, hətta Ermənistanın da müstəqilliyini tanımadığı, Azərbaycan ərazilərində yaradılmış saxta "artsax respublikası" rəhbərlərinin mühakiməsindən gedir. Bu, tarixi bir proses olacaq. Xüsusən də qondarma rejimdə rəhbər olmuş Araik, Bako və Arkadinin verdiyi tapşırıqlar, Qarabağın yuxarı hissəsində illərlə törətdikləri cinayətlərlə bağlı faktlar açıqlanacaq. Bu da Bakının Qarabağ separatçıları üçün quracağı "Nürnberq prosesi" sayılacaq. Bu proses nasist rejiminin öndə gələn adamlarının mühakimə etmək üçün 1945-1949-cu illərdə qurduqları məhkəmədir. Mühakimə edilənlər arasında Martin Borman, Rudolf Hess, Yoahim von Ribbentrop da var idi.

**Azad Vətən Partiyasının sədri Akif Nağı "Yeni Müsavat"a açıqlamasında istintaq işlərinin obyektiv aparıldığına əmin olduğunu vurğuladı. Onun sözlərinə görə, istintaq müddətində digər faktlar, habelə, azadlıqda gəzən erməni hərbi caniləri, Köçəryan, Ohanyanla bağlı sübutlar da meydana çıxıb:** "Fikrimcə, ədalətli proses aparılıb. Bu müddətdə ombudsman və BQXK onlara baş çəkib, hüquqları təmin olunub, saxlanma şəraitindən narazılıq etməyiblər, ona görə kənardan bizə heç nə deyə bilməzlər. Ümumiyyətlə, bu adamlar ağır cinayətlər törədiblər və cəzalarını almalıdırlar".

**A.Nağı bildirdi ki, Nürnberq məhkəməsində yəhudilərə və bəşəriyyətə qarşı törədilmiş cinayətlərə görə bütün alman xalqının mühakiməsi variantı var idi:** "Sonra həmin variant Kosova albanları məsələsinə görə serblərə qarşı da təklif edilmişdi, ancaq yarımçıq qaldı. İndi də bütövlükdə ermənilərin, xaricdə yaşamış, Qarabağda və Ermənistandakı ermənilərin məsələsi ayrıca mövzu kimi məhkəmə prosesində qoyulmalıdır. Məncə, layiqli cəzalarını alacaqlar və onların təhvil verilməsi reallaşmamalıdır. Düzdür, bu məsələni vaxtaşırı qaldırırlar, ancaq bu addım atılmalı, onlara törətdikləri cinayətlərə adekvat şəkildə sərt cəza verilməlidir. Eyni zamanda, Sərkisyan, Köçəryanın hərbi cinayətləri ilə bağlı ayrıca iş qaldırılmalıdır".

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** dedi ki, baş prokuror çoxdan gözlədiyimiz məsələyə aydınlıq gətirdi və qarşıda həbsdəki separatçıların məhkəmə işi gəlir. Hüquq müdafiəçisi bildirdi ki, Azərbaycan demokratik və hüquqi dövlətdir, məhkəmədə bütün prosedurlar qaydalara və normalara uyğun şəkildə təmin ediləcək, təqsirləndirilən şəxslər onlara verilən hüquqlardan istifadə edəcəklər: "Amma onların törətdiyi cinayətlər o qədər ağır maddələrlə ehtiva olunub ki, adekvat cəza alacaqlar. Burada kin-nifrət, irqi ayrı-seçkilik, etnik təmizləmə, soyqırım kimi ağır ittihamlar var. Əminliklə deyə bilərəm ki, layiqli cəzalarını alacaqlar".

**Bakupost.az-ın sualını cavablandıran deputat Elman Məmmədov separatçılara ən ağır cəza verilməsinin tərəfdarı olduğunu deyib:** "Hazırda həbsdə olan separatçılar insanlığa, dövlətimizə, millətimizə qarşı çox ağır soyqırımı cinayətləri törədiblər. Onların başqa cinayətləri də var və bütün bunlar istintaqa məlumdur. Ona görə hesab edirəm ki, onlar Azərbaycan qanunlarıyla ən ağır cəzaya məhkum olmalıdırlar. Yəni onların törətdiyi cinayətlər elə bir həddədir ki, heç bir güzəşt olunmamalıdır, Azərbaycan qanunları çərçivəsində ən ağır cəza verilməlidir. İndi Azərbaycanda ölüm hökmü yoxdur, amma mən arzu edərdim ki, belələri üçün ölüm hökmü olsun. Yəqin ki, ömürlük həbs vermək lazımdır ki, ömürlərinin axırına qədər həbsdə qalsınlar".

**Politoloq Əlimusa İbrahimov isə bildirib ki, bu gün Azərbaycanla Ermənistan arasında nəinki ekstradisiya haqqında müqavilə, heç diplomatik münasibətlər belə yoxdur:** "Belə olan təqdirdə, onları hansı formada verə bilərik?! Bilirik ki, ekstradisiya olması üçün iki ölkə arasında bu və ya digər şəkildə hüquq-mühafizə orqanları arasında münasibətlər və razılaşmalar olmalıdır. Onların gələcəkdə nə zaman Ermənistana verilməsi məsələsinə gəldikdə isə həbs cəzası alanda gözləmək olar ki, nə vaxtsa müqavilə imzalanandan sonra Ermənistana təhvil verilsinlər. Lakin indiki halda bu, mümkün deyil. İnanmıram ki, onlara 5-10 illik həbs cəzası verilsin. Fikrimcə, ən azı onlara 15-20 illik, yaxud da ki, ömürlük həbs cəzası veriləcək. Mənə elə gəlir ki, Azərbaycan tərəfi məhz onlara görə yaxın gələcəkdə və ya uzun perspektivdə ekstradisiya istiqamətində müqavilə imzalayacaq və buna meyl göstərməyəcək".

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**






## İrəvan Rusiyanın Qafanda konsulluq açmasına qarşı

**Ermənistan hökumət Qafanda Rusiya konsulluğunun açılmasının qarşısını almağa çalışır. Bu barədə "Hraparak" məlumat yayıb. "Rusiyanın belə bir arzusu çoxdan olub və Ermənistan hökuməti rəsmən buna icazə verib. Qafan meri Gevorq Parsyan da konsulluq üçün yer ayırıb.**

Lakin hakim "Vətəndaş sazişi" ("VS") partiyasının yerli şöbəsi, təbii ki, yuxarı orqanların təhriki ilə fəallaşıb və prosesin baş verməməsi üçün bir neçə aydır ki, fəal işləyir. Qafanda Rusiya konsulluğunun açılmamasının fəal müdafiəçilərindən biri də "VS"-dən olan deputat Marina Qazaryandır. O, hətta Qafan sakinləri adından konsulluğun açılmasının əleyhinə Xarici İşlər Nazirliyinə müraciət təqdim etmək üçün imza toplanması təşəbbüsü ilə çıxış edib. Dünən onunla əlaqə saxlayıb, XİN-ə müraciət edib-etmədiyini öyrənə bilmədik", erməni nəşri bildirir.

"Yeri gəlmişkən, Rusiya xarici işlər nazirinin müavini Yevgeni İvanov bu yaxınlarda bəyan etmişdi ki, Moskva konkret tarix göstərmədən yaxın vaxtlarda Qafanda konsulluq açmağı gözləyir. 2023-cü ildə noyabrın 2-də Rusiya hökuməti Qafanda baş konsulluğun açılması haqqında razılaşmanı təsdiqləyib. Xarici işlər naziri Ararat Mirzoyan Moskvanın Qafanda konsulluq açmaq istəyini təsdiqləyib və rəsmi İrəvan da buna razılaşıb. Hazırda Qafanda yalnız bir ölkənin konsulluğu var - İranın. Rusiyanın isə Ermənistanda yalnız Gümrüdə konsulluğu var", - Ermənistan qəzeti belə yazır.

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

# Paşinyanın "atəşkəs komissiyası" təklifi - orduya nəzarət edə bilmirsə...

## Ermənistanın sərhəddə silahlı təxribatları getdikcə intensiv hal alır, İrəvan isə atəşkəsin pozulmasını araşdırmaq üçün ikitərəfli mexanizm yaratmağı təklif edir; hərbi və siyasi analitiklər bu ideyaya fərqli yanaşır

**Ermənistanın Azərbaycanla sərhəddə silahlı təxribatları getdikcə intensiv hal alır. Bir neçə gün ardıcıl olaraq Naxçıvan istiqamətində atəşkəsi pozan erməni tərəfi Kəlbəcər istiqamətində də təxribat törətdi.**

Belə ki, Kəlbəcər rayonunun Mollabayramlı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərimiz ermənilərin üzbəüz istiqamətdəki mövqelərindən atəşə tutuldu. Maraqlıdır ki, Ermənistanın baş naziri Nikol Paşinyanın ofisi diplomatik kanallar vasitəsilə Azərbaycan Prezident Administrasiyasına atəşkəs rejiminin pozulması hallarının araşdırılması mexanizminin yaradılmasını təklif edib. "...Ermənistan hökumətinin gərginliyin yaranmasının qarşısını almaq niyyətində olduğunu əsas götürərək, Baş Nazirin Aparatı diplomatik kanallar vasitəsilə Azərbaycan Prezidentinin Administrasiyasına atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün ikitərəfli mexanizm yaratmağı təklif edib". Bu barədə Ermənistan Nazirlər Kabineti məlumat yayıb.

Maraqlıdır ki, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar Ermənistanın təklifinə dərhal dəstək verib. Klaar Azərbaycana atəşkəs rejiminin pozulması hallarının araşdırılması üçün ikitərəfli mexanizm yaratmaq təklifini yüksək qiymətləndirib. "Gərginliyi azaltmaq üçün Ermənistan-Azərbaycan sərhədində iddia edilən atəşkəs pozuntularının aradan qaldırılması üçün ikitərəfli mexanizm yaratmaq təklifi alqışlanmalıdır. 15 ildir ki, Avropa İttifaqı Aİ-nin Gürcüstandakı missiyası vasitəsilə Gürcüstanda analoji görüşlərin təşkilinə kömək edib və öz təcrübəsini bölüşməyə hazırdır", - Klaar əlavə edib.

Bəzi ekspertlərin fikrincə, son günlər müxtəlif istiqamətlərdə atəşkəsin pozulmasında ilk növbədə Ermənistan ordusu daxilində xaricə bağlı olan qüvvələrin əli var. Atəşkəsin tez-tez pozulması Paşinyanın komandasının ordu daxilində öz hakimiyyətini tam olaraq bərqərar edə bilmədiyini göstərir. Çünki onun danışıqlar apardığı bir ərəfədə sıravi əsgərin, zabitin təxribat məqsədilə Azərbaycan tərəfinə özbaşına atəş açması inandırıcı görünmür. Demək ki, ordu daxilində ən yüksək səviyyədə Paşinyanın siyasətinə qarşı çıxan, xaricdən və daxildən dəstək alan qüvvələr var.



**Polkovnik Şair Ramaldanov hesab edir ki, mexanizm yaradılsa belə, onlara atəşkəsi pozduğunu sübut etmək çətin olacaq:** "Azərbaycan Ordusunun Ermənistanın ərazilərini ələ keçirmək gücü var, amma belə niyyəti yoxdur. Biz şərti sərhədi normal dövlət sərhədinə çevirməyə köklənmişik. Buna hazırlaşan dövlət heç zaman atəşkəsin pozulmasında maraqlı ola bilməz. Bu, sadə məntiqdir. Lakin Paşinyan ordu daxilində bəzi qüvvələr olduğunu bəhanə gətirir, guya İrəvan sülh istəyir, amma imkan vermirlər. Əgər Nikolun sülh sənədini imzalamağa iradəsi çatsaydı, havadarlarının bu vəziyyətdən manipulyasiya etməsinə şərait yaratmasaydı, belə hallar olmazdı. Ermənistan hakimiyyəti və onun himayəçiləri dildə sülhdən danışır, əməldə isə regionda maraqları naminə başqa addımlar atdığını görməkdəyik". **Ramaldanovun sözlərinə görə, Ermənistandan müsbət fikirlər səslənir, hərəkətlər isə fərqlidir:** "Bu addımlar isə regionu təhlükəli vəziyyətə gətirib çıxarır. Yad ölkələrin maraqlarının təmin edilməsi Paşinyanın siyasətidir və bu da bölgədə gərginliyə səbəb olur. Ermənistanın baş naziri baş komandan kimi bütün məsələlərə cavabdehdir, onun yerinə niyə deməliyik ki, orduya nəzarət edə bilmir?! Məncə, orduya nəzarət olunur, sadəcə, Paşinyan və ya onu idarə edənlər tərəfindən bu məsələlər həyata keçirilir. Ona görə də rəsmi İrəvan atəşkəsin pozulmasına cavab verməlidir".

**Siyasi ekspert Ramiyə Məmmədova atəşkəsin pozulmasını araşdırmaq mexanizmi təklifini etimad mühitinin möhkəmlənməsi istiqamətində yaxşı ideya sayır. Onun fikrincə, bütün məsələlər ikitərəfli qaydada müzakirə olunursa, bu problem də qarşılıqlı şəkildə həllini tapa bilər:** "Ən azından belə bir təşəbbüs var və müdafiə nazirləri birbaşa rabitə yarada bilərlər. Hətta 2021-ci ildə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan insidentlərin qarşısını almaq üçün müdafiə nazirləri səviyyəsində birbaşa rabitə əlaqəsinin yaradılması barədə razılığa gəliblər. Amma hiss olunur ki, bu razılaşma sonra praktik olaraq inkişaf etmədi. İndi isə İrəvanın bu təklifi üzərindən müdafiə nazirlərinin birbaşa rabitəsini qurmaq mümkündür. Sözsüz ki, atəşkəsi araşdırmaq mexanizmi mürəkkəbdir. Ermənistan etiraf etməyəcək ki, bunu özü edib. Bundan əvvəl bir dəfə erməni ordusunda yoxlamalar aparılıb, nəticəsi haqda ictimaiyyətə məlumat verilməyib. Üstəlik, Ermənistanın bizimlə sərhədində "Yekrapa" könüllü dəstələri yerləşib və onların atəşkəsi pozması inandırıcıdır. Nenkin And tərəfdən atəş açılanda rəsmi İrəvan rus hərbçilərinə eyham vuraraq ittiham irəli sürmüşdü".

**Ekspertin rəyi ondan ibarətdir ki, yəni həm rus hərbçiləri, həm "Yekrapa", həm ordu daxilində başqa kanallara bağlı bölmələr təxribata yol verə bilər:** "Azərbaycanı isə maraqlandırmır ki, bunu kim edib, fakt Ermənistan tərəfdən mövqelərimiz atəşə tutulub. Ona görə Paşinyan özü kontrolu gücləndirməlidir. Amma həmin təklifin də inkişaf etdirilməsi mümkündür və ən azı sərhədlərin dəqiqləşdirilməsi işi ilə yanaşı bunu da ikitərəfli təmaslarla həyata keçirə bilərlər. Bu, gərginliyi azalda, etimadı artıra bilər. Sadəcə, Nikol bu təklifi irəli sürməklə özünü təmizə çıxarmağa çalışıb. Guya onluq bir iş yoxdur və ordu daxilində kontrolsuz qruplar var. Amma bu da onu bir ali baş komandan kimi rüsvayçı statusa salır. Sən necə ali baş komandansan ki, ordunun içində sənin iradəndən kənar hərəkət edən qüvvələr var?!"

**Hərbi ekspert Elxan Şıxəliyev isə hesab edir ki, biz Ermənistanla nə sülh, nə də müharibə vəziyyətindəyik, hazırda atəşkəs rejimidir, lakin Ermənistan tərəfindən təhriklər mövcuddur:** "Son bir həftə ərzində Naxçıvan istiqamətində atəşkəsi pozmaları buna sübutdur. Atəşkəs pozulursa, demək, əməliyyatların başlanması ehtimalı həmişə var. Ermənistanın ikili oyunu yaxşı nəticələr vəd etmir və Azərbaycan onların müharibə ritorikasını açıq-aydın sezir".

### Ermənistan hökumətində dəyişiklik anonsu

**Ermənistan baş naziri Nikol Paşinyan rəhbərlik etdiyi hökumətdə ciddi kadar dəyişikliyinə hazırlaşır. Bu barədə "Hraparak" qəzeti məlumat yayıb. Erməni nəşri yazır ki, hakim "Vətəndaş Müqaviləsi" Partiyasının iyunun 22-də Xankavanda keçirilən toplantısından sonra partiyanın yüksək rütbəli üzvlərinin dincliyi pozulub. Paşinyan iclasdakı çıxışında bildirib ki, 2026-cı ildə keçiriləcək parlament seçkilərinə qədər kadr dəyişikliyi edəcək.**

Paşinyan bunu güclü komandanın qurulması kontekstində deyib və vurğulayıb ki, nəyin bahasına olur-olsun, seçkilərdə 50+1 səs toplamalıdırlar. Baş nazirin ad çəkməməsi hakim komandada gərginlik yaradıb. Komanda üzvləri Paşinyanın kimləri nəzərdə tutduğunu bilmirlər.

"Hakim komanda bir neçə gündür qarşıda sürprizlərlə dolu iki ilin olduğunu deyir. Paşinyan hakimiyyətin yenidən qurulması və partiyasına inamın artırılması naminə yeni addımlar atacaq", - nəşr vurğulayır.

**Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko Bizim.media-ya deyib ki, Paşinyanın sözügedən təklifdə səmimi olmasını gözləmək lüzumsuzdur:** "Açığı, söhbət Azərbaycanı Ermənistan üçün faydalı olacaq hansısa birgə fəaliyyətə cəlb etməkdən gedir. Ona görə də hesab edirəm ki, burada ilk növbədə Azərbaycanın dövlət strukturlarının müvafiq arqumentlərə əsaslanaraq, bunu etmək lazım olub-olmaması ilə bağlı Ermənistana tutarlı cavab verə biləcək mövqeyinə diqqət yetirmək lazımdır.

Nəzərə alsaq ki, Paşinyanın arxasında Fransa və ABŞ, eləcə də təxribat xarakterli kəşfiyyat fəaliyyəti ilə məşğul olan Avropa Birliyinin müşahidə missiyası dayanır, Paşinyanın Azərbaycana təkliflərinin Qərbin böyük geosiyasi oyununun tərkib hissəsi ola biləcəyi göz qabağındadır. Əlbəttə ki, əsl niyyətlər arxasınca getmək yerinə, tamamilə fərqli problemləri həll etmək taktikasını seçiblər. Ordu Paşinyanın bütün əmrlərini yerinə yetirir, ona görə də generallar daxili siyasi böhranlara qarışmayıb".

❑ **Emil SALAMOĞLU**
**"Yeni Müsavat"**



# Təhsilimizin “üz qarası” kimi statistika

## Ekspert: “Oxuyub-yaza bilməyən 9-11-cilər monitorinqlərdən necə keçiblər?!”

**Ötən il şagirdlər arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər və ya ümumiyyətlə, oxuyub-yazmağı bacarmayanlar da aşkar olunub. Bu barədə “Abituriyent” jurnalının 12-ci nömrəsində qeyd edilib.**

Belə ki, 9-cu sinif şagirdləri arasında 5 nəfər, 11-ci sinif şagirdləri arasında isə 2 nəfər olub. “Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların əslində daha çox olduğunu ehtimal etmək olar. Rayonlar üzrə oxumağı və yazmağı bacarmayan 9-cu sinif şagirdlərinin sayı belədir: Qazax, Şuşa, Ağstafa, Şahbuz rayonlarının və Bakı şəhərinin hərəsində 1 nəfər. 11-ci sinif şagirdlərindən oxumağı və yazmağı bacarmayanlar isə Cəlilabad və Qobustan rayonlarından olub”, - deyə məlumatda qeyd olunub.

Qeyd edək ki, 2008-ci ildən başlayaraq respublikanın ümumtəhsil müəssisələrində yeni təhsil proqramlar tətbiq olunur və yeni məzmun standartlarına uyğun hazırlanmış dərsliklərdən istifadə edilir. Amma zaman-zaman monitorinqlərin şəffaf keçirilib-keçirilməməsi ilə bağlı iddialar da səsləndirilir. Bəzi ekspertlərə görə, məktəblərdə qiymətləndirmədə kifayət qədər qüsurlar var. Bir çox hallarda məktəb direktorları, sinif rəhbərləri bu prosesdə tərəf olaraq qeyri-obyektivlik nümayiş etdirirlər.

**Sosial Tədqiqatlar Mərkəzinin əməkdaşı, elm və təhsil müəssisələri üzrə tədqiqatçı Elmin Nuri mövzu ilə bağlı “Yeni Müsavat”a deyib ki, son on ildə bununla bağlı antirekord göstərici 2018-2019-cu illərə aid idi:** “İldən-ilə azalma olsa da, mən burada müsbət tendensiya görmürəm. 2024-cü il, süni intellekt əsrində, ərazisi, əhalisi o qədər də böyük olmayan, internetin ucqar kəndə də çatdığı bir ölkənin vətəndaşlarıyıq. Belə olduğu halda bir nəfərin belə 9-cu sinfə çatdığı halda oxuyub yazmağı bilməməsi absurddur. Əgər şagird 9-cu sinfə qədər gəlibsə, 4-cü sinfin monitorinqindən necə keçib? Oxuyub- yazmağı bilməyən, adını belə yaza bilməyən şəxs sinifdən-sinfə necə keçib? Məktəblərdə valideyn komitələri var, onlar bəs övladlarının oxuduğu sinifdə oxuyub-yazmağı belə bacarmayan şagirdləri görmürlər? Hələ məktəbə gəlməyib qiymət yazılan uşaqlar var, bu da başqa bir biabırçılıqdır. Oxuyub yazmağı bacarmayan şəxs məktəbə gəlməyib, gedib tarlada işləyibsə, ya başqa işlə məşğul olubsa, bunun özü də başqa bir qayda pozuntusudur. Bundan əlavə, bu şagirdlər kiçik summativ, böyük summativ qiymətləndirmələrdən necə keçiblər?”

**Ekspert əlavə edib ki, bu gün məktəblərdə nəzarətedici funksiyalar artırılmalıdır:** “Bunun üçün məktəbin pedaqoji şurasına əlavə səlahiyyətlər verilməlidir. Direktorla məktəbin tabe olduğu qurumlar arasındakı koordinasiyaedici güc artırılmalıdır. Əgər şagird 7-ci sinfə gəlib çatıb və oxumağı və yazmağı bacarmırsa, onu "kəsib atmaq" lazım deyil. Bu cür uşaqlar üçün müəyyən proqram hazırlanmalıdır. Eyni zamanda bu cür uşaqlar peşə təhsilinə yönləndirilməlidir. Dərs göstəriciləri çox zəif olan uşaqlar birbaşa, məcburi, icbari olaraq peşə məktəblərinə yönləndirilməlidir. Heç olmasa, onları bu yolla cəmiyyətə qazandıra bilək".

**Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

# Göyçaya səs salan hadisə - 56 şagirdə yüksək təqaüdü kim verdi?

## Elxan Süleymanov: “Ulu öndərin, Cənab Prezidentin, Mehriban xanımın nəcib təşəbbüsünə dəstək olaraq, babam Hacı Rəhim Əfəndinin irsini davam etdirərək təhsilimizin inkişafına bacardığım dəstəyi vermişəm”











**Göyçayda əlaçı şagirdlərə Hacı Rəhim Əfəndi adına təqaüdlər təqdim edilib.**

Bu təqaüd hələ 1991-ci ildə Hacı Rəhim Əfəndinin nəvəsi, AVCİYA prezidenti Elxan Süleymanov tərəfindən təsis edilib və 1995-ci ilədək Göyçayda 100-dən çox əlaçı şagirdə verilib. Daha sonra Elxan Süleymanov Şamaxının millət vəkili olduğu illərdə bu təqaüdü şamaxılı şagirdlər alıb.

Nəhayət, 2024-cü ildə Elxan Süleymanov Göyçayda yenidən Hacı Rəhim Əfəndi təqaüdünü bərpa etməyə qərar verib. E.Süleymanovun təşəbbüsü ilə hazırlanan, Ümummilli lider Heydər Əliyevin 100 illiyinə ithaf olunan Göyçay Ensiklopediyasının 30 sentyabr 2023-cü ildə baş tutmuş təqdimat mərasimində AVCİYA prezidenti təqaüdü bəyan etmiş və ən yüksək nəticə göstərən şagirdlər arasında Hacı Rəhim Əfəndi adına təqaüdün laureatlarının müəyyənləşdirilməsi üçün komissiya yaradılmış, seçimlərə start verilmişdi.

Ötən müddət ərazində Göyçayın 56 məktəbinin hər birindən 1 şagird olmaqla, qaliblər müəyyənləşdi. Təqaüdün məbləği simvolik deyil, bir şagirdin təhsilinə ciddi dəstək olan vəsaitdir - illik 500 manat.

Nəhayət, iyunun 21-də Hacı Rəhim Əfəndinin 1914-cü ildə əsasını qoyduğu, hazırda onun adını daşıyan Qaraman kənd orta məktəbində 56 qalib şagirdin mükafatlandırılması mərasimi keçirildi.

Tədbirə Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev, millət vəkili Qüdrət Həsənquliyev, Göyçay RİH başçısının humanitar məsələlər üzrə müavini Zivər Zeynalova, Türkiyənin sabiq XİN başçısı Mövlud Çavuşoğlunun qardaşı, Türkiyə Turizm Nazirliyinin müşaviri Hayrin Çavuşoğlu, 1991-94-cü illər Hacı Rəhim Əfəndi adına mükafatı almış tanınmış şəxslər - jurnalist, “Yeni Müsavat” Media Qrupun redaktoru, QHT rəhbəri Elşad Məmmədli, doktor Fərqanə Qafarova, rayon ziyalıları, ictimaiyyət nümayəndələri də qatılmışdılar.

E.Süleymanov çıxışında Ulu öndər Heydər Əliyevin, Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təhsilə ən yüksək diqqət və qayğı göstərdiklərini bildirdi. O, “Mən Ulu öndərin, Cənab Prezidentin, Mehriban xanımın bu nəcib təşəbbüsünə dəstək olaraq, babam Hacı Rəhim Əfəndinin irsini davam etdirərək, təhsilimizin inkişafına, gələcəyimizin sağlam yetişməsinə daim bacardığım dəstəyi vermişəm. Məktəblər tikmişəm, yüzlərlə şagirdə təqaüd vermişəm, təhsil haqlarını ödəmişəm” - deyə qeyd etdi: “Bunları onun üçün edirik ki, ölkəmiz daha da qüdrətlənsin, savadlı gənclərimizin sayı artsın, dövlətimizə faydalı kadrlar yetişsin. Oğullarıma vəsiyyət etmişəm ki, məndən sonra da onlar təhsil xeyriyyəçiliyini davam etdirsinlər”.

İcra başçısı Natiq Ağayev dövlətimizin rəhbərinin təhsilə xüsusi diqqət yetirdiyini, Elxan Süleymanovun təşəbbüsünün rayon üçün mühüm addım olduğunu vurğuladı və şagirdlərə uğurlar arzuladı.

Millət vəkili Qüdrət Həsənquliyev dedi ki, Elxan Süleymanovun bu addımı bütün imkanlı şəxslər üçün bir örnək olmalıdır. Təhsilə qayğı göstərməyin dövlətə, millətə ən nəcib xidmət olduğunu bildirdi.

Rayon Təhsil sektorunun müdiri Rauf Məmmədov əlaçı şagirdlərə təqaüd verməklə onların daha da təhsilə bağlanmasına vəsilə olduğu üçün E.Süleymanova təşəkkürlərini bildirdi, həmçinin, rayon şagirdlərinin son illərdə yüksək nəticələr göstərdiyini nəzərə çatdırdı.

Fəxri təqaüdçülər Fərqanə Qafarova, Elşad Məmmədli çıxışlarında xələflərinə böyük uğurlar arzuladılar.

**E.Məmmədli qeyd etdi ki, bu cür təşəbbüslər şagirdləri təhsilə, ümumiyyətlə, həyata daha çox bağlayır:** “Təsəvvür edin, indi bütün Göyçay məktəblərində bu yüksək məbləği - 500 manatlıq və tarixi yükü olan təqaüdü almaq üçün necə canlanma var. Baxın, gələn il bu mükafata sahiblənmək üçün necə yarış başlayacaq və bu o deməkdir ki, nə qədər yenİ yetmə, şagird daha elmli, savadlı yetişəcək. Dünyada ən böyük yaxşılıq təhsilə göstərilən dəstəkdir. Çünki bu, birbaşa cəmiyyətin, dövlətin inkişafına xidmətdir. Konkret olaraq Elxan Süleymanovun bu addımı Göyçay ictimaiyyəti, ümumilikdə ölkə təhsilinin inkişafı üçün olduqca nəcib bir işdir”.

Hacı Rəhim Əfəndi adına Qaraman kənd orta məktəbinin direktoru Gövhər Abbaslı qonaqları salamladı, ölkə rəhbərliyinin təhsilə göstərdiyi qayğıları sadaladı, bu cür təşəbbüsə görə Elxan Süleymanova təşəkkürlərini bildirdi, şagirdləri təbrik etdi, uğurlar arzuladı. O xatırlatdı ki, 21 iyun həmçinin Elxan Süleymanovun doğum günüdür, onun 83 yaşı tamam olur.

Tədbir iştirakçıları alqışlarla Elxan Süleymanovu təbrik etdilər.

**E.Süleymanov söz alaraq bildirdi ki, Prezident İlham Əliyev bütün ad günlərində rayonlara səfər edir, məcburi köçkünlərlə görüşür, insanların əhatəsində olur:** “Bu da bizə örnəkdir. Biz də Liderimizin əsgəri olaraq xalqımıza bacardığımız xidməti göstərməyə borcluyuq”.

Sonda laureatlara mükafatları Elxan Süleymanov, icra başçısı Natiq Ağayev, deputat Qüdrət Həsənquliyev, Türkiyədə nazir müşaviri Hayrin Cavuşoğlu, fəxri təqaüdçü, doktor Fərqanə Qafarova təqdim etdilər.

Elşad Məmmədli isə simvolik olaraq fəxri təqaüdçü kimi estafeti məzunu olduğu, həmçinin bir müddət müəllim işlədiyi Potu kənd orta məktəbinin şagirdi Rzaya ötürdü.

**Musavat.com**

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

**Bu gün Azərbaycan Ordusu 106 yaşını qeyd edir. Ordumuzun yaranmasının çox şərəfli tarixi var.**

# Qalib Azərbaycan Ordusunun haqq etdiyi bayram

## 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində ordumuzun qələbəsi dünya hərb elminin tarixində mühüm izlər qoydu



Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə 1918-ci il iyunun 26-da ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilən "İstiqlal Bəyannaməsi"ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Beləliklə də hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi. Ardınca, dekabrın 25-də general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əlağa Şıxlinski isə nazir müavini təyin olundular.

Qısa müddətdə yaradılmasına baxmayaraq, Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamları yatırdı, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Onu da qeyd edək ki, Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirilib.

Lakin çox təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti, o cümlədən 15 general Nargin adasında güllələndi.

Sovet hakimiyyəti dövründə isə Rusiya imperiyası çalışırdı ki, Azərbaycanın milli zabit kadrları yetişdirilməsin. Bunu özü üçün təhlükə hesab edirdi. Bu baxımdan azərbaycanlılara qarşı hərbi siyasət yürüdülür, azərbaycanlı gənclər hərbi xidmətə çağırılsalar da onlar döyüş üçün nəzərdə tutulan hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd də aydın idi - azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə bu vəziyyəti və məqsədi dərindən anlayırdı. Bu səbəbdən çoxsaylı təzyiqlərə və tənqidlərə baxmayaraq, 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail oldu. Beləliklə də onun uzaqgörənliyi ilə Azərbaycanın milli zabit kadrlarının yetişdirilməsinə başlanıldı. Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu var. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, Vətən müharibəsində qəhrəmanlıq tarixi yazdılar.

Həmçinin Heydər Əliyev sovet dövründə azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail olur.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edilir. Lakin o dövrün məlum səbəblərindən, həmçinin müstəqilliyin ilk illərindən Ermənistanın ölkəmizə hücumu, törətdiyi qətliamlar ordu quruculuğu işini dərindən sarsıdır. Nəticədə düşmən 20 faiz torpaqlarımızı işğal etməyə nail olur.

Yenidən hakimiyyətə qayıdan Heydər Əliyev ordu quruculuğu işinə xüsusi önəm verir. Bunun sayəsində Azərbaycan Silahlı Qüvvələri 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə uğurlu əməliyyat həyata keçirir və Füzuli rayonunun 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilir. Ordu quruculuğu işinə böyük önəm verən Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 İyun - Silahlı Qüvvələr Günü elan olunur.

Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə ordu quruculuğu prosesi tamamilə yeni mərhələyə qədəm qoydu.

Hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizat olunması yönündə ciddi işlər görüldü və qısa bir zamanda Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusuna çevrildi. "Global Fire Power" mərkəzinin 55 göstərici əsasında hazırladığı hesabatda Azərbaycan Ordusu Cənubi Qafqazda birinci, dünyada ilk əlli ordu sırasında yer aldı.

Qeyd edək ki, İlham Əliyevin sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradıldı. Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur.

2011-ci il iyunun 26-da Bakıda Azərbaycan Ordusunun hərbi qüdrəti Silahlı Qüvvələr Günü və müstəqilliyin bərpasının 20 illiyi münasibətilə keçirilən hərbi paradda əyani nümayiş etdirildi.

Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Belə ki, aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə də Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə tarix yazdı. Ermənistan silahlı qüvvələri bu döyüşlərdə böyük itkilər verdi. Ordumuz Ağdərə-Madagiz, Cəbrayıl istiqamətindəki yolların nəzarətdə saxlanılmasına imkan verən strateji mövqeləri azad etdi.

Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

2020-ci ilin iyulunda düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısını rəşadətlə alan cəsur Azərbaycan Ordusu çox keçmədən xalqımıza öz tarixinin ən şanlı qələbəsinin sevincini yaşatdı.

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun qələbəsi təkcə Azərbaycan tarixində deyil, dünya hərb elminin tarixində mühüm izlər qoydu. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, çox qısa bir zamanda, 44 gün ərzində - noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Düşmənin tam məğlubiyyəti ilə nəticələnən bu müharibə noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi.

Dekabrın 10-da isə bu qələbənin şərəfinə Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda möhtəşəm Zəfər Paradı keçirildi. Paradda düşmənin ələ keçirilən silah-sursat və texnikası ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımız nümayiş etdirildi.

**2023-cü il noyabrın 8-də isə Xankəndidə hərbi parad keçirildi. Paradda çıxış edən Prezident, Ali Baş Komandan İlham Əliyev qeyd edib:** "Bu günü bizə bəxş edən müzəffər Silahlı Qüvvələrimiz döyüş meydanında cəsarət, qəhrəmanlıq, fədakarlıq göstərərək düşməni bizim əzəli torpaqlarımızdan qovmuşdur. Bu, böyük tarixi hadisədir. Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq Qələbə olmamışdır. Şuşa əməliyyatı, 44 gün ərzində apardığımız bütün digər hərbi əməliyyatlar, hərbçilərimizin şücaəti bir qəhrəmanlıq dastanıdır. Qırx dörd gün ərzində döyüş meydanında düşməni məğlub edərək, şəhər və kəndlərimizi azad edərək Azərbaycan əsgər və zabiti əsl qəhrəmanlıq göstərmişdir. Hər gün biz irəli gedirdik, bir gün belə geriyə addım atmamışdıq. Düşmən ordusu Azərbaycan Ordusunun, Silahlı Qüvvələrin peşəkarlığını, fədakarlığını görərək daha da böyük təşvişə düşürdü və onların özlərinin etirafına görə, 44 günlük müharibə zamanı Ermənistan ordusunda 12 min fərari olmuşdur. Azərbaycan Silahlı Qüvvələrinin bir nəfər də olsun hərbçisi döyüş meydanını tərk etməmişdir. Bu, Azərbaycan xalqının əyilməz ruhunu və yüksək mənəvi keyfiyyətlərini bir daha bütün dünyaya nümayiş etdirdi".

❑ Xalidə GƏRAY,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024



# Dilim-dilim olan dil müəllimləri

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə əsgərlərimizi ordu günü münasibətilə təbrik edirəm. Bu saat ölkədə yeganə təbrik edilməsi qurum varsa, yəqin o elə ordudur, çünki öz funksiyasının - vətəni qorumaq - öhdəsindən nəhayət gəlmişdir. Başqa hər peşənin, hər birimizin işində nəsə çatışmazlıq, yarıtmazlıq tapılar.**

Elə bugünlərdə müəllimlər arasında maraqlı süpürləşmə gedir. Hökumət onları nəyəsə görə (artıq kimin xışı daşa dirənsə müəllimləri sınağa çəkir) imtahan edib, lakin qəribə nəticələr ortaya çıxıbdır: ana dili və ədəbiyyat müəllimləri şikayətlənir, deyinir ki, bizə verilən suallar riyaziyyat və ingilis dili müəllimlərinə verilən suallardan qat-qat çətin idi, bu ədalətsizlikdir, dünya birliyi nə üçün susur, qabaqdan seçki gəlir, biz daha lazım deyilikmi və sairə və ilaxır.

İmtahanlarda toplanan ballar müəllimlərin maaşına ciddi təsir edirmiş. Dava elə buna görədir.

Müəllimlərin sosial şəbəkə paylaşımlarından haqlı olduqları görünür. İmtahanda qoyulan bu suala baxın: "Hansı cümlədə morfoloji sualı aid olduğu nitq hissəsinə mənsub olmayan feilin sintaktik sualı da morfoloji suala oxşardır?" Aşağıda 5 cümlə yazılıb, lakin heç onları burada verməyə ehtiyac yoxdur, çünki sualın özünü başa düşmək üçün, yalan olmasın, yarım saat vaxt lazımdır. Ona qədər də imtahan bitər.

Mövzuya dəxli yoxdur, ancaq bir sual məni xeyli güldürdü, onu sizinlə bölüşürəm: "Hansı nümunələrdə məcazilik olub-olmadığını dəqiq demək olmur?" Deyəcəksiniz bunun nəyi gülməlidir? Əlbəttə. Satira cavab variantlarında idi. Beş cavabın axırıncısı bu cürdür: "Quru sərhədlər artıq açılmayacaq". Sualı tərtib edən müəllim(ə)in gözündən öpürəm. Vallah, səsli güldüm.

Azərbaycan dili və ədəbiyyatı müəllimlərimizin problemini yaxşı anlayıram. Çünki biz hazırda dil baxımından yetmiş yeddi dərənin suyunu bir kanala axıdırıq və yol ayrıcında qalmışıq. Dilin adı, işlənən sözlər, alınma sözlər, əski dilimiz, neologizmlər, dialektlər və sairə - ortaq razılığa gələ bilmədiyimiz min dənə şey var. Ona görə uşaqlar orta məktəbdə oxuduğu mətni anlamır. Qəzet jurnalistləri televiziya jurnalistlərinin nə danışdığını başa düşmür, o cümlədən camaat qəzeti oxuyanda oradakı moltanı dilinin qarasınca söylənir. Məhkəmə qərarını oxuyursan, sanki klinqonlar yazıb. Tərcümə kitabı alırsan, bilmirsən bunu ruscadan suaxili dilinə tərcümə ediblər, yoxsa çin dilinin mandarin ləhcəsindən portuqalcaya. Vəziyyət bizim düşündüyümüzdən ağırdır. Təxmin edirəm, beş-on il də belə davam etsə biz əl işarələri ilə rabitə quracağıq.

Fikrim boş giliz kimi havaya getməsin deyə misal çəkirəm. İstənilən bir ana dili dərsliyimizin elektron variantını internetdə tapıb baxdım. Bu, 8-ci siniflər üçün "Azərbaycan dili" dərsliyi oldu. Qəttəzə, 2023-cü ilin kitabıdır. Kitabda ilk mətn 7-ci səhifədə başlanır və elə buradan da uşaqlara yarımçıqlıq, yalançılıq aşılanır. Çünki mətnin ilk cümləsi belədir: "Əziz dostlar! "Doğma dilim, sən ki, varsan..." ifadəsi ilə başlanan "Azərbaycan dili" dünyamıza xoş gəlmişsiniz". Yarım-yapalaq, şeir misrasına oxşar o cümlə nəyi ifadə edir, yəqin bunu yazıq uşaqlar və müəllimlər özləri xəyal etməlidir. Buna qədərsə kitabda himn-filan da daxil olmaqla, 7 səhifə yazı-pozu, foto-moto var. Deməli, bu "dünya" o ifadə ilə başlanmır, bizə yalan deyirlər.

9-cu səhifədə belə absurd, uydurma cümlə verilib, babası uşağa deyir: "Elm, memarlıq, tikinti, gəmiçilik və sairə sahələrdə Avropa Şərqə borcludur". Hansı Şərqə, hansı gəmiçiliyə, hansı elmə... Dəhşətdir. Bu cəfəngiyyatla uşaq böyüdülərmi?

Həmin səhifədə başqa yalan: "Dünya dörd dirək üstündə durur, bunlardan biri dindarların ibadətidir". Elə bil dünyəvi dövlətin dərsliyini yox, Talibanın şəriət qaydalarını oxuyursan.

13-cü səhifədə dizinə kitab qoyub çəmənliyə çökmüş uşaq şəkli veriblər, uşağın maksimum 6 yaşı olar. 8-ci sinifləri müəlliflər bu qədər balaca sayır?

Dərslik heç dəxli olmayan, məzmunsuz statistika və faktlarla ləbələb doldurulub: "Firudin bəy Köçərlinin yazdığına görə, Ağa Məsih Şirvani Sultan Məcid Qənizadənin dördüncü babasıdır", "Qıraq Kəsəməndən İsrafil ağa və Kosalardan Məşədi İbrahim Məmmədəlinin mülkünü almaq üçün müştəri düşdülər" və sairə.

22-ci səhifədə Bəxtiyar Vahabzadənin "Ana dili" şeiri verilib. Şeir kökündən yalan olan misra ilə başlayır: "Dil açanda ilk dəfə "ana" söyləyirik biz".

Hamımıza məlumdur ki, "ana" sözünün içindəki "n" təzə dil açan körpə üçün çox çətin ifadə edilən səsdir. Körpə dil açanda ilk olaraq "baba", "məmə", "mama" deməsi min dəfə asandır və adətən də belə olur.

"Bu dil tanıtmış bizə bu dünyada hər şeyi" misrası da arxaizmdir, köhnəlibdir. Get Amazonkaya, Nyu Yorka, nə bilim, Tokioya, gör ana dilimizlə nəyi tanıyacaqsan. Mən dünya ədəbiyyatını rus dili ilə öyrənmişəm, qızım indi ingiliscə oxuyur.

Bu cür dərsliyi öyrənsən nə olacaq, öyrədən imtahandan kəsilsə nə olacaq?

**Ötən həftə Avropa İttifaqı Aİ-Azərbaycan Təhlükəsizlik Dialoqunun 5-ci raundunda iştirakçılar ikitərəfli münasibətlərin vəziyyəti, eləcə də qarşılıqlı maraq doğuran aktual xarici və təhlükəsizlik siyasəti məsələləri ətrafında açıq fikir mübadiləsi aparıblar. Görüşdə əsas diqqət çəkən məqamlardan biri Avropa Sülh Fondu ilə mümkün əməkdaşlıq məsələsi olub.**




# Avropa Sülh Fondu anti-Azərbaycan siyasətini dəyişə bilər

## Avropa İttifaqı-Azərbaycan Təhlükəsizlik Dialoqunun əsas müzakirə mövzularından biri də Avropa Sülh Fondu ilə mümkün əməkdaşlıq məsələsi olub - ekspert rəyləri

Qeyd edək ki, 2021-ci il martın 22-də yaradılan fondun 2021-2027-ci illər üçün təxminən 5 milyard avro büdcəsi formalaşdırılıb. Avropa Sülh Fondunun büdcəsi Aİ-yə üzv dövlətlərin ianələri hesabına formalaşır. Fondun təsis məqsədi Aİ-nin münaqişələrin qarşısını almaq, sülhü qorumaq və beynəlxalq sabitliyi və təhlükəsizliyi gücləndirmək qabiliyyətini artırmaqdır. Aİ-nin Ermənistan silahlı qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu çərçivəsində yardım paketi ayıracağı aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və ABŞ dövlət katibi Entoni Blinken arasında keçirilən görüşlə bağlı mediaya sızan məlumatlarda öz əksini tapmışdı.

Həmin vaxt yayılan məlumatda Avropa Sülh Fondu vasitəsilə Ermənistana yardım paketinin qəbulu məsələsində artıq Aİ-də konsensus əldə olunduğu bildirilmişdi.

Azərbaycanla Avropa Sülh Fondu arasında elə bir əməkdaşlıq yoxdur. Ancaq Avropa Sülh Fondu təcavüzkar Ermənistana çoxsaylı qayğı göstərir. Elə yaxın dövrdə həmin fond Ermənistana 10 milyon avro yardım ayırmaq istəyirdi. Macarıstan buna qarşı çıxdı və bildirdi ki, Ermənistana yardım ayrılırsa, Azərbaycana da ayrılsın. O baxımdan bu danışıqların əsas nəticəsi ona gətirib çıxarda bilərmi ki, Sülh Fondu xətti ilə yardımlar məsələsində Azərbaycanla Ermənistana fərq qoymaq siyasətinə son qoyulsun?

**Yeni Azərbaycan Partiyasının deputatı Kamran Bayramov "Yeni Müsavat"a bildirdi ki, Ermənistan bəlli güclərin diktəsi ilə hərəkət edir:** "ABŞ və Qərbi Avropa ölkələri əməlləri ilə açıq şəkildə nümayiş etdirirlər ki, Cənubi Qafqaza əmin-amanlığın gəlməsini istəmir. Qərbin Yaxın Şərq və Cənubi Qafqaza yanaşması eynidir. Məqsəd hər iki region üçün sülhü bərpa etmək, minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırıb atəşkəs əldə etmək yox, müharibəni daha da alovlandırıb yeni ocaqlar yaratmaqdır. 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasında vasitəçi kimi çıxış edən Avropa İttifaqı bu gün nümayiş etdirdiyi mövqeyi ilə özü-özünü ifşa edir, vasitəçilik təşəbbüsünə kölgə salır. Ermənistanın hər iki qonşu ölkə ilə normallaşmaya getməsinin Avropa tərəfindən də təşviq edilməsi prioritet olmalı idi. Lakin indi tamam əks mənzərə müşahidə olunur. Avropa İttifaqı bu gün regionda destruktiv bir fəaliyyətlə məşğuldur. Bu məqsədlə də Ermənistandan bir vasitə kimi istifadə edir. Aİ-Avropa Sülh Fondu çərçivəsində Ermənistana hərbi yardımın göstərilməsi, eləcə də vətəndaşlar üçün viza rejiminin sadələşdirilməsi imkanlarını nəzərdən keçirir".

**Millət vəkili diqqətə çatdırdı ki, Avropa Sülh Fondunun büdcəsi Aİ-yə üzv dövlətlərin ianələri hesabına formalaşır. Fondun təsis məqsədi Avropa İttifaqının münaqişələrin qarşısını almaq, sülhü qorumaq, beynəlxalq sabitliyi və təhlükəsizliyi gücləndirmək qabiliyyətini artırmaqdır:** "Fond Ermənistan üçün fəlakətli ssenarilər hazırlayır. İkinci Qarabağ müharibəsindən sonra bu proses daha da gücləndirilib. Aİ-nin Ermənistan silahlı qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu çərçivəsində yardım paketi ayıracağı isə aprelin 5-də Brüsseldə Ermənistan baş naziri Nikol Paşinyan, Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen və ABŞ dövlət katibi Antoni Blinken arasında keçirilən görüşlə bağlı mediaya sızan məlumatlarda öz əksini tapmışdı. Həmin vaxt yayılan məlumatda Avropa Sülh Fondu vasitəsilə Ermənistana yardım paketinin qəbulu məsələsində artıq Aİ-də konsensus əldə olunduğu bildirilmişdi. Hərçənd Brüssel görüşü ərəfəsində ABŞ və Avropa İttifaqı müxtəlif səviyyələrdə rəsmi Bakını əmin etməyə çalışırdılar ki, əməkdaşlıqda hərbi komponent yoxdur. Amma bundan az sonra Avropa İttifaqının Ermənistan silahlı qüvvələrinə dəstək məqsədilə Avropa Sülh Fondu çərçivəsində yardım paketini qəbul etdiyi məlum olub. Bu paket Ermənistanın müdafiə sektorunda milli təhlükəsizliyini, sabitliyini və dayanıqlığını gücləndirmək məqsədi daşıyır. Artıq Brüssel razılaşmasına uyğun olaraq Avropa İttifaqı 2,5 il ərzində Ermənistanda bir batalyonun modul səhra düşərgəsi üçün 10 milyon avro ayrılması barədə qərar qəbul edib. Vəsait Avropa Sülh Fondu tərəfindən verilməli idi. Modul tipli düşərgəyə, həmçinin klinika, müvafiq xidmətlər və obyektlər daxil olacaq. Qeyd edilir ki, bu dəstəyin məqsədi Ermənistan silahlı qüvvələrinin dayanıqlığını və sabitliyi bərqərar etmək qabiliyyətini artırmaqdır. Amma Avropa Sülh Fondunun bu addımlarına hələlik yalnız Macarıstan əngəl olmağa çalışır. Görünən odur ki, Avropa İttifaqı ermənipərəst mövqe ortaya qoyan Avropa Sülh Fondu vasitəsilə Ermənistana hərbi yardımların göstərilməsi imkanlarını genişləndirməyə çalışır. Ancaq Macarıstan buna etiraz edərək Avropa İttifaqını birtərəfli mövqe sərgiləməkdən çəkindirməyə çalışır".

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov Aİ-Azərbaycan münasibətlərinin dəyişəcəyini proqnozlaşdırmır:** "Qərb kapitalist dünyasıdır. Qərb transmilli iqtisadi nəhənglərin dünyasıdır. Ona görə də burada aparıcı amili maraqdır. Lakin bəzən Qərbin kapitalist paradiqmasının əksinə hərəkət etdiyini də görürük. Ermənistana yardım məsələsinə gəldikdə isə bu da anlaşılandır. Ermənistan Qərbə meylli bir yol tutub. Lakin Paşinyan ara-sıra Rusiya ilə də münasibətlərin tam bitməsini istəmir. Amma onun cinahında bunu istəyənlər vardır. Nəyin bahasına olursa-olsun, Ermənistanı tam olaraq Qərbə çəkmək istəyirlər. Avropa fondları da Ermənistana xüsusi qayğısı ilə bu prosesi sürətləndirmək istəyirlər. O ki qaldı bizə münasibətə son qoyulacaqmı? Avropa heç zaman səmimi olmayacaq. Çünki Azərbaycan onurğalı siyasət aparır, regiondakı reallıqları nəzərə alır, Avrosentrizmdən uzaq olduğunu bəyan edir, Türkiyə ilə müttəfiqlik, Rusiya ilə tərəfdaşlıq, İranla qarşılıqlı maraqları nəzərə alan qonşuluq, Gürcüstanla investisiya qoyuluşunda liderlik, Mərkəzi Asiya ilə dərinləşən əməkdaşlıq üzərində bir siyasət yeridir. Bu regional və regionlararası müstəvidə uğurların dərinləşməsi davam edəcəyi təqdirdə Avropa özü Azərbaycanın maraqlarını nəzərə alacaq. Amma o ki qaldı münasibətlərin dəyişməsinə, bunu güman etmirəm. İqtisadi münasibətlər davam edəcək, dərinləşəcəkdir, lakin siyasi baxış bucaqlarımız fərqlidir".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Sülh sazişindən əvvəl “Avroreferendum” planı

## Siyasətçilərin qənaətinə görə, Avropa İttifaqı Ermənistanı gözləmir, Qərbə bu ölkə anti-Rusiya fəaliyyəti üçün lazımdır; lakin İrəvan Aİ-yə üzvlük üçün tələsir

**“Avropa İttifaqı Ermənistanı gözləmir. Qərbə Ermənistan onun üçün lazımdır ki, hökumətdən anti-Rusiya fəaliyyətləri üçün istifadə edə bilsinlər”. Bunu “Sputnik Ermənistan”a müsahibəsində parlamentin keçmiş vitse-spikeri, Ermənistan Respublikaçılar Partiyasının nümayəndəsi Eduard Şarmazanov deyib.**

“100 gündən sonra hansı referendumdan danışırıq, bəs Brüssel rəsmilərindən biri Ermənistanın Avropa Birliyinə üzv olması ilə bağlı riskləri önləməyə söz veribmi?”, - deyə sual edib. Onun fikrincə, Qərb Gürcüstanda həyata keçirə bilmədiklərini indi Ermənistanda reallaşdırmağa çalışır, ölkəni Rusiyaya qarşı sınaq meydanına çevirirlər. “Ermənistandan cəmi 1 kvadratkilometr, cəmi bir milyon adam qalsa belə, onların vecinə deyil”, - deyə siyasətçi əminliklə vurğulayıb. O, Ukraynanın başına gələnləri xatırladıb, deyib ki, bir vaxtlar Avropanın ən böyük dövləti indi parçalanıb. Şarmazanov bildirib ki, 2018-ci ildə “məxməri inqilab”ın məqsədi Ermənistanı Rusiya ilə olan ittifaqlardan çıxarmaq və Qərbə doğru xarici siyasət kursun götürmək olub. Şarmazanov parlamentdə Aİ bayrağının asılmasından qəzəblənib.

**“Ermənistanın bayrağı istisna olmaqla, parlamentdə Aİ bayrağının qoyulması Ermənistanın suverenliyinə və müstəqilliyinə birbaşa zərbədir”, - deyə o bildirib. Parlamentin keçmiş vitse-spikerinin fikrincə, sentyabrın 21-də Aİ-yə üzvlük məsələsi ilə bağlı referendumun keçirilməsi Ermənistanın müstəqilliyinə formal olaraq son qoyacaq.** “Niyə onlar Rusiya ilə münasibətlərin yaxınlaşmasından danışanda bu, "Rusiyaya xidmət" hesab olunur. Parlamentdə isə Aİ-dən danışanda, az qala Avropa İttifaqının bayrağını öpürlər" - siyasətçi ironiya edib. Siyasətçi əmindir ki, Ermənistanın gələcəyi iqtisadi, siyasi və hərbi sahədə Moskva və Tehranla müttəfiqliyin möhkəmlənməsindən keçir. Şarmazanov vurğulayıb ki, indiki hakimiyyətin addımlarının islahatlara və ya demokratiyaya heç bir aidiyyəti yoxdur.

“Mən özümü parlamentdə ”Ermənistanın Aİ-yə üzvlük ərizəsi ilə bağlı referendum keçirilməsi təklifi" mövzusunda keçirilən dinləmələrə qulaq asmağa məcbur etdim. Dinləmə iştirakçılarının çıxışlarından aydın oldu ki, bu adamlar Avropa İttifaqının və onun üzvü olan dövlətlərin real siyasətləri haqqında elementar anlayışa malik deyillər". Bunu isə Ermənistanın müdafiə nazirinin sabiq müavini Artak Zakaryan deyib. Zakaryan hesab edir ki, Aİ-yə üzvlük üçün müraciət etmək, yumşaq desək, bugünkü alçaldılmış, məğlub olmuş və borc içində çabalayan Ermənistanın özünü aldatmasıdır. Ermənistan hakimiyyəti son açıqlamalarında sülh sazişindən yayınmaq meylləri aşkar görünməkdədir. Məsələn, xarici işlər naziri Ararat Mirzoyan son olaraq bildirib ki, Azərbaycan Cənubi Qafqazda sülhün bərqərar olması məsələsində ölkənin səmimiliyinə şübhə yaradan yeni gündəmlər irəli sürür. Bəs İrəvanın sülh sazişindən əvvəl Avropa İttifaqına üzvlüklə bağlı referendum planı nəyə hesablanıb?

“Nə Moldova, nə Gürcüstan, nə Ukrayna 2030-cu ildən tez Avropa Birliyinə üzv olacaqlar. Ona görə Ermənistanın onlardan tez quruma qoşulması nonsensdir. Ümumiyyətlə, Ermənistanın Avropa




Birliyində nə işi var? Bu ölkə nə dərəcədə demokratikləşib və sivilləşib ki, Avropa ailəsinin bir parçası olsun? Ermənistan bir Avrasiya ölkəsidir və Rusiyadan asılılığı çox yüksəkdir, onun Avroatlantik məkana inteqrasiyası Azərbaycan və Türkiyənin əlindədir. Bu ölkələrlə normallaşma olmasa, Zəngəzur dəhlizi açılmasa, Ermənistan blokadadan çıxmasa, heç zaman Avropa İttifaqını görməyəcək”.

Bu fikirləri “Yeni Müsavat”a **siyasi ekspert Fuad Əliyev** açıqladı. Onun sözlərinə görə, sülh sənədini imzalamadan parlamentdə Aİ-yə üzvlük müzakirələri və referendum çağırışları İrəvanın yanlış düşüncəsidir. “Paşinyan xalqı referenduma səfərbər etmək istəyir ki, əhalinin Avrointeqrasiya xəttini dəstəklədiyini nümayiş etdirsin. Bunun üçün gecə-gündüz anti-Rusiya ritorikasını gücləndirir və xalqda Rusiyaya nifrəti artırır. Paşinyan kabinetinin üzvləri məqsədli şəkildə Rusiyanı ittiham edirlər. Xalq görsün ki, Ermənistanın bu vəziyyətə düşməsinin səbəbi müttəfiqi Rusiyadır, yəni ona güvənmək olmaz və yolumuz Avropadır. Bax, belə bir kurs götürülüb və referendum hazırlığı da ondan xəbər verir. Bir müddət sonra referendum mümkündür, Paşinyan istəyinə nail ola da bilər, amma ölkəsinin üzvlüyü yaxında görünmür”. Onun xatırlamasına görə, Paşinyan Brüsseldə olarkən elə bu il Aİ-yə üzv olmaq istədiklərini açıqlamışdı: “Amma Ermənistan Avrasiya İqtisadi Birliyinin üzvüdür. O zaman gərək bu təşkilatı tərk etsin. Çünki Avropa İttifaqı da siyasi-iqtisadi platformadır. İrəvan iki stulda otura bilməz”.

**F.Əliyevin qənaətinə görə, Fransa Ermənistana Aİ-yə üzvlükdə böyük dəstək verə bilər:** “Avropa Sülh Fondu Ermənistana yardım ayırır, apreldəki Brüssel görüşündə də Qərb köməyini ifadə etdi. Bu cür maliyyə axıntıları Paşinyanı həvəsləndirir. Amma bu gedişat Rusiya ilə daimi gərginlik vəd edir. Qərb fondları da İrəvandakı QHT-lərə maliyyə ayırırlar. Hazırda Ermənistan idarə olunur. Bu ölkə Avropa üçün yeni anti-Rusiya tribunasına çevrilib. Paşinyan isə addımlarını demokratik məkana inteqrasiya kimi servis edir. Bu piar erməni cəmiyyətində şirnikləndirici təsir bağışlayır, amma Ermənistan bütün sahələrdə Rusiyadan necə asılı olduğunu başa düşməlidir. Yeni referendum keçirib Avropa İttifaqına üzvlük niyyəti ifadə olunsa belə, bu ölkənin birliyə qoşulması çətin görünür. İkincisi, Aİ-yə üzv olmağın əsas şərti ölkənin Avropa qitəsində yerləşməsidir. Ermənistan isə coğrafi nöqteyi-nəzərdən Asiyaya aiddir. Daxili qaydalara görə, Aİ Şurası üzvlüklə bağlı müraciəti ya yekdilliklə rədd, ya da təsdiqləyə bilər. Ermənistanın Aİ üzvlüyünə namizəd statusu almasını mümkünsüz edən digər amillər də var. Bu ölkənin dövlət sərhədini rus hərbçiləri qoruyurlar və orada Rusiyanın 102 saylı hərbi bazası yerləşir”.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# “Yaxın 3 ayda Ermənistanda həlledici döyüş olacaq”

## Zahid Oruc: “Biz Paşinyana yardım göstərməliyik ki, o, missiyasını axıra çatdırsın”



**Sosial Tədqiqatlar Mərkəzinin sədri, millət vəkili Zahid Oruc Milli Məclisin 25 iyun iclasında Ermənistanda baş verən son hadisələrə toxunub. Deputatın fikrincə. Vətən müharibəsində qələbəmiz erməni kilsəsinin tarixi statusunu dəyişir və Ermənistan hakimiyyəti, nəhayət, katolikos institutunun müstəsnalığına, hökmranlığına son qoymağa yaxındır:**

“Müstəqillik günündə II Qareginin rəsmi tədbirə buraxılmaması, Nikol Paşinyanın "təsir agentləri" adlandırdığı din xadimləri ilə yaxın 3 ayda həlledici döyüşün olacağını göstərir. Bəli, sərhədin delimitasiyasına etiraz adı ilə meydanlara çıxan Baqrat Qalstanyanın apardığı mübarizə təkcə hakimiyyət davası deyil, kilsənin dövlət üzərində minillik inhisarını qorumağa xidmət edən “xaç yürüşü”dür.

Hamıya bəllidir, Erməni Apostol Kilsəsinin düşmənçiliyi ən çox xalqımıza edilib. Biz Razdan meydanında İskəndər raketləri və ordudan qabaqda gedən keşiş kolonunu da görmüşük, birinci və ikinci Qarabağ müharibələrində erməni əsgərlərinə xeyir-dua verən, onları təcavüzə, qəddarlığa, kütləvi qırğınlara səsləyən qara xaçlı komandirləri də unutmamışıq.

Əgər qətllər törədən hərbçiyə “Böyük Tiqran ordeni” və qəhrəmanlıq medalları verilirdisə, kilsə xadimlərinə də yepiskopluqdan patriarxlığa qədər bəxş olunan dini rütbələr məhz işğalın mükafatlarıdır. Əlləri təkcə azərbaycan xalqının deyil, öz millətinin də qanına batanlar din xadimi sayıla bilməzlər. Kilsə dövlətə çevrilib düşmənçilik yaymaqla Erablur məzarlığını qazanıb. Dəfn kontorları kimi çalışan, hərbi qərarlar imzalayan Patriarxat və kilsə indi hakimiyyəti təkbaşına ələ almaq iddiasındadır. Görün, bir xalq onu məğlubiyyətə gətirən köçəryanlara, sərkisyanlara nə qədər nifrət edir ki, bir keşişin ətəyindən asılı qalıb. Əsl faciə budur.

Artıq erməni rəsmiləri də xalqımızın 100 illərlə dediklərini təsdiqləyir. İlk növbədə, erməni baş nazir “tarixi, mifik yox, real Ermənistan” deyir, “dövlət kilsədən ayrılmalıdır”, söyləyir. Qalır təkcə soyqırım əsarəti. Ondan da xilas etsə, Paşinyan milli çevriliş edəcək. Biz yardım göstərməliyik ki, o, missiyasını axıra çatdırsın.

Hakim partiyadan deputat Arsen Torosyan, “1700 ildir erməni dövlətçiliyinin məhvinə səbəb olan kilsənin mif və stereotiplərini məhv etməliyik”, söyləyir. **İqtidaryönlü “Baqramyan-26” teleqram kanalı yazır:** "Düşmənçilik və nifrət yayanlar xristianlığı və müqəddəsliyi təmsil etmirlər". Bəli, hər sözünə qatılırıq. Lakin Paşinyanı xaç və qılıncla devirməyə çalışanlar hakimiyyətə gəlsələr, onda keşişlərin qələbəsi erməni xalqının məğlubiyyəti, yaxud “Varfolomey gecəsi” olacaq. Çünki katolikos sülhü yox, müharibəni təmsil edir.

Bir kilsə əmin-amanlığa xidmət etmirsə, o, Allah evi yox, hərbi-siyasi qərargahdır, diriIdən məbəd deyil, öldürən silahdır. Paşinyanın cəsarətli fikri necə də həqiqətdir: “Ermənistanda Allaha inanmayan çoxlu din xadimi var”. Biz Ermənistanın siyasi hakimiyyəti ilə barış anlaşması imzalayacağıq, lakin kilsə və dünya erməniçiliyi xalqımızla düşmənçiliyi davam etdirəcək. İsa Məsih məhz beləlirinə üz tutub deyirdi: “Ata, onları bağışla, çünki nə etdiklərini bilmirlər”.

❑ **“Yeni Müsavat”**

# Parlament büdcəyə dəyişiklikləri təsdiqlədi

## Milli Məclis Ali Baş Komandanı və Silahlı Qüvvələrin şəxsi heyətini təbrik etdi

**25 iyunda Milli Məclisin növbəti iclası spiker Sahibə Qafarovanın sədrliyi keçirildi. Xanım sədr giriş nitqində Silahlı Qüvvələr Günündən bəhs etdi: "106 il öncə yaradılmış Azərbaycan Ordusu şərəfli inkişaf yolu keçərək bu gün dünyanın ən güclü orduları sırasında yer alır. Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində və bir günlük antiterror tədbirlərində milli hərb tariximizə yazdıqları şanlı səhifələr xalqımızın qürur mənbəyidir".**

S.Qafarova əlavə etdi ki, qəhrəman ordumuzun döyüş meydanlarında göstərdiyi hünərlər qarşıya qoyulan hədəflərə nail olmaq üçün onun ən mürəkkəb hərbi əməliyyatları yerinə yetirməyə qadir olduğunu nümayiş etdirib: "Azərbaycan torpaqlarını 30 il işğal altında saxlamış Ermənistan silahlı qüvvələri darmadağın edilib, əzəli və tarixi torpaqlarımız olan Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən xilas edilib. Tarixi ədalətin öz yerini tutması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması naminə canından keçmiş şəhidlərimizin, qanlı döyüşlərdə yaralanmış əsgər və zabitlərimizin igidliyini və fədakarlığını biz heç zaman unutmayacağıq". **S.Qafarova qeyd etdi ki, Silahlı Qüvvələr Gününü bayram edərkən Azərbaycan hərbi nailiyyətlərini qeyd etməklə yanaşı, müdafiə potensialını daha da möhkəmləndirməyə, regionda daimi sülh və sabitlik yaradılmasına kömək göstərməyə sadiq olduğunu da təsdiqləyir:** "Bu gün Silahlı Qüvvələrimiz işğaldan azad olunmuş bölgələrin müdafiəsi, dövlət sərhədlərimizin qorunması naminə öhdələrinə düşən vəzifələri layiqincə yerinə yetirirlər. Əminliklə söyləmək olar ki, Azərbaycan Silahlı Qüvvələri qarşıdakı illərdə daha da inkişaf edəcək və dünyanın qüdrətli orduları sırasında öz yerini möhkəmləndirəcək. Hörmətli deputatlar! Silahlı Qüvvələr Günü münasibətilə biz müzəffər Ali Baş Komandanı, Silahlı Qüvvələrin qəhrəman əsgər və zabitlərini, bütün hərbi qulluqçularımızı ürəkdən təbrik edir, Azərbaycanın milli maraqlarının və hərbi təhlükəsizliyinin qorunması naminə şərəfli missiyalarını həyata keçirməkdə onlara yeni uğurlar arzulayırıq!"

Deputatlar alqışlarla təbrikə qatıldılar.

**Komitə sədri Siyavuş Novruzov** çıxışında bir sıra ölkələrdə baş verən hadisələrə istinadən bildirdi ki, ayrı-ayrı qüvvələr müxtəlif ölkələri zəiflətməkdən, onların başını özlərinin daxilində baş verənlərə qatmaqdan ötrü müxtəlif təhdidlərə əl atırlar. Odur ki, S.Novruzov parlamentdəki büdcə müzakirələrində müdafiə və təhlükəsizlik sahəsinə maliyyə vəsaitinin artırılmasını da doğru hesab etdi.

S.Novruzov daha sonra parlament seçkiləri və ayrı-ayrı müxalifət partiyalarının prosesin əleyhinə mövqe sərgiləməsinə toxundu. "Müxalifət sevinməlidir ki, parlament seçkiləri vaxtından qabaq keçirilir", deyən komitə rəhbəri qeyd etdi ki, onlar bir vaxtlar yeni seçkilərin keçirilməsi tələbi ilə mitinqlər elan edirdilər: "6-cı çağırış Milli Məclis fəaliyyətə başlayandan deyirdilər ki, növbədənkənar parlament seçkiləri olmalıdır, mitinq keçirirdilər. İndi seçki ilə bağlı məsələ ortaya çıxandan tam əks-mövqe nümayiş etdirirlər, bunun əleyhinə təbliğat aparmağa başlayıblar".

**Mədəniyyət komitəsinin sədri Fazil Mustafa** dövlət qulluğuna qəbulla bağlı danışdı. Dövlət qulluğunda ən çox bal toplayan şəxsin qəbuluna gəldiyini deyən deputat bildirdi ki, həmin şəxsdən az bal toplayan işə götürülüb, amma o, şifahi mərhələdən keçə bilməyib. Hansı ki, magistraturanı bitirib, iki sertifikatı var, amma işə qəbul olunmayıb. F.Mustafa bu kimi hallarla bağlı narahatlığını ifadə etdi və dövlət qulluğuna qəbulla bağlı daha həssas yanaşmanı zəruri saydı.

**Ceyhun Məmmədov Xəzər rayonunda 3 polis əməkdaşının axtarışda olan şəxs tərəfindən qətlə yetirilməsindən danışdı. C.Məmmədov bir həssas məqama da diqqət çəkdi:** "İllər öncə Azərbaycanda ölüm hökmü ləğv olundu. Hərçənd ki, proseslər göstərir ki, bəzi cinayətlərin qarşısının alınması üçün bəzi hallarda ölüm cəzası daha effektivdir. Diqqət çəkmək istədiyim əsas məqam ondan ibarətdir ki, dəfələrlə cinayət törətmiş insanların həbsdən azad olunmasına daha həssas yanaşmalıyıq. Təcrübə göstərir ki, bu insanlar həbsdən azad olunduqdan sonra eyni cinayətləri törətməyə davam edirlər. Belə olduğu halda onların cəza törətmək ehtimalı daha çoxdur".

**Deputat Sahib Alıyev** dedi ki, artıq neçənci dəfədir Birləşmiş Ştatların hər hansı yüksək vəzifəli məmuru ilə ünsiyyətdən dərhal sonra Ermənistan rəsmiləri hətta konkret vaxt göstərməklə Azərbaycanla sülhdən dəm vururlar. Deputatın sözlərinə görə, Blinkenin Prezident İlham Əliyevə növbəti telefon zəngindən də göründüyü kimi, Bayden administrasiyasına noyabrda keçiriləcək seçki öncəsi Azərbaycanla Ermənistan arasında tez-tələsik hər hansı bir çərçivə anlaşması lazımdır: "Amma elə bir anlaşma ki, düşmənçiliyi aradan qaldırmasın. Əgər Birləşmiş Ştatlar bu regionda davamlı və dayanıqlı sülhdə maraqlı olsaydı, onda Riçard Verma hayları Azərbaycan Prezidentinin ABŞ dövlət katibi ilə telefon danışığında da səsləndirdiyi beynəlxalq hüquqa və beynəlxalq təcrübəyə dayanan tələbini yerinə yetirib, konstitusiyalarını dəyişdirməyə çağırardı, onları silahlandırıb revanşizmə həvəsləndirən ölkələrin səfirləri ilə İrəvanda özünün də qeyd etdiyi kimi "isti və məhsuldar" görüş keçirməzdi".




Sonra büdcəyə dəyişiklik layihəsi III oxunuşda müzakirəyə çıxarıldı. Sənədi parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim etdi. Bildirdi ki, dəyişikliklərdə 3 milyard 796 milyon manat məbləğində yeni xərclərin həyata keçirilməsi nəzərdə tutulub. Həmin xərclərin bir sıra prioritet istiqamətlərə yönəldilməsi nəzərdə tutulur. Bura işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən tikinti, bərpa və yenidənqurma işləri (1 milyard 160 milyon manat), ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin daha da artırılması (807 milyon manat), infrastruktur və digər layihələrin maliyyə təminatı (1 milyard 184 milyon manat), beynəlxalq fəaliyyət üzrə tədbirlərin maliyyələşdirilməsi və digər zəruri xərclər (499 milyon manat), zəruri əsaslı xərclər, təmir və sair (146 milyon manat) daxildir.

Komitə sədrinin sözlərinə görə, yenidən baxılma ilə 2024-cü ilin dövlət büdcəsinin xərcləri 39 milyard 707 milyon manat məbləğində, dövlət büdcəsinin gəlirləri isə 36 milyard 353 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü ilin dövlət büdcəsinin kəsiri 764 milyon manat artaraq, 3 milyard 354 milyon manata çatdırılır.

Büdcəyə dəyişiklik layihəsi səsverməyə çıxarılaraq qəbul edildi.

Torpaq Məcəlləsinə edilən dəyişikliklər də müzakirələrə səbəb oldu.

**Deputat, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyevin sözlərinə görə, bir çox hallarda qanunları qəbul edərkən həmin qanunlar hüquqi ekspertizadan keçirilmir:** "Bir araşdırma aparılmır ki, sonradan bu norma qanunun sui-istifadəyə məruz qalmasına yol açacaq, yoxsa yox?" Q.Həsənquliyev əlavə etdi ki, edilən dəyişikliklər müvafiq icra hakimiyyəti orqanına geniş miqyasda səlahiyyətlər, yəni öz mülahizələrinə görə tətbiq edəcəyi səlahiyyətlər, həm də dispozitiv imkanlar yaradır: "Biz qanunun özündə nəzərdə tutmalıyıq ki, hansı hallarda torpaqların kateqoriyaları dəyişdirilə bilər və müvafiq icra hakimiyyəti orqanına öz mülahizələrinə görə qərar qəbul etmək üçün bu qədər geniş səlahiyyətlər verilməməlidir. Normativ hüquqi aktlar haqqında qanunun 64-cü maddəsində qeyd olunur ki, dövlət orqanının (vəzifəli şəxsin) səlahiyyətlərinin həyata keçirilməsi ilə əlaqədar olan tipik sui-istifadə halları hansılardır. Burada birinci qeyd olunur ki, diskresion səlahiyyətlərin geniş olması. İkinci, səlahiyyətlərin dispozitiv imkan kimi müəyyənləşdirilməsi. 64.1.9-cu bənddə isə qeyd olunur ki, qanundakı boşluqların icra hakimiyyəti orqanının normativ hüquqi aktları ilə doldurulması. Biz burada bu imkanı veririk ki, yəni müvafiq icra hakimiyyəti orqanı özünün normativ hüquqi aktı ilə bizim qanunda yaratdığımız boşluğun aradan qaldırılması".

**Deputat həmkarlarının diqqətinə özünün rastlaşdığı bir hadisəni çatdırdı:** "Mənə yaxın insanlar müraciət etmişdilər ki, Masazırda qəsəbənin ortasında torpaq sahələri var, amma onun kateqoriyasını heç cür dəyişdirə bilmirlər. Baxmayaraq ki, ətrafdakıların hamısı bunu edə bilib. Yəni orada su yoxdur, kənd təsərrüfatı təyinatı üçün istifadə oluna bilməz. Kənd Təsərrüfatı Nazirliyi, İqtisadiyyat Nazirliyi bu barədə razılıq verib. Amma yenə də bu məsələ Nazirlər Kabinetində ilişib qalıb və o, bu məsələni heç cür həll edə bilmir. Uzun illərdir həmin torpaq yararsız vəziyyətdə qalıb. Ona görə hesab edirəm ki, biz bu məsələləri qanunvericilik qaydasında tənzimləməliyik. Yəni icra hakimiyyəti orqanlarına belə geniş səlahiyyətlər verilməməlidir".

**Deputat Razi Nurullayev bildirdi ki, birinci oxunuşda sənədə səs verib və ikinci oxunuşda da müsbət münasibət bildirəcək:** "Xeyli mütərəqqi qanundur, ən azından irəliyə doğru atılmış addımdır. Kənd təsərrüfatı təyinatlı torpaqların məqsədli təyinatının çevik mexanizmi yaradılır, üzərində tikinti aparılması qaydaları müəyyənləşdirilir və digər məsələlər daxil edilib. Amma bu dəyişikliklər təəssüf ki, mövcud problemlərin hamısını həll edə bilmir. Bu gün kənd təsərrüfatı təyinatlı torpaqlar böyük miqdarda zəbt edilib, qanunsuz yollarla əldə edilib, qanuni sahiblərinin əlindən alınıb və s. Bunları sadalamaq istəmirəm, çünki ikinci oxunuşdur. Bir neçə suallarım və fikirlərim var. Kənd təsərrüfatı təyinatlı torpaqlarda 5 hektar ərazinin bir faizi həcmində tikinti aparıla bilər. Əgər ərazi bir hektardırsa, daha azdırsa, daha çoxdursa bu necə hesablanacaq? Ola bilsin ki, bu var, mən başa düşə bilmədim. Qanunun 5-ci maddəsində deyilir ki, bələdiyyələr bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaqların qeyri-kənd təsərrüfatı məqsədilə digər kateqoriyalara keçirilməsi ilə bağlı müvafiq icra hakimiyyətinin müəyyən etdiyi orqana müraciət edirlər. Məsələ burasındadır ki, edirlər, amma nəticə yoxdur və istərdim ki, bu maddə daha aydın, səlis, məqsədi məlum xarakter daşısın və konkret problemləri əhatə etsin".

Müzakirələrdən sonra layihə təsdiqləndi.

"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi ikinci oxunuşda qəbul edildi. Parlamentin Əmək və Sosial Siyasət Komitəsinin sədri Musa Quliyev şəhid ailələri və qazilərə dövlət qayğısından bəhs edərkən bildirdi ki, 2025-ci ilin sonuna qədər bütün şəhid ailələri və qazilər mənzillə təmin olunacaq.

**Elşad PAŞASOY, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

# Müxalifət seçkiyə ittifaq qurmadan gedir

## Böyük ehtimal ki, ayrı-ayrı dairələrdə digər partiyalarla qarşılıqlı razılaşma ilə güzəştlər ola bilər

**REAL Partiyası Siyasi Komitəsi bazar günü keçiriləcək toplantısında parlament seçkilərinə namizədlərini təsdiqləyəcək.**

Bu barədə **REAL sədri İlqar Məmmədov** bildirib. O qeyd edib ki, indiyə qədər seçki qərargahına müraciət edən hər bir iddialı partiya üzvü haqda bu, son qərar olacaq: "Gələn həftə isə partiyamızın üzvü olmayan şəxslərin iştirakı ilə koalisiyanın mümkünlüyünə baxacağıq. Buna siyasi zərurət varsa, tanınmış ictimai-siyasi şəxslərlə seçki ittifaqı qura bilərik. Gələn həftənin sonuna qədər bu haqda da yekun qərarımız olacaq".

İndiyədək keçirilən parlament seçkilərində əsas müxalifətin keçdiyi yola ötəri nəzər salmaqda fayda var. 1995-ci ildə müstəqil Azərbaycanın tarixində ilk dəfə keçirilən parlament seçkilərində qalib gələn namizədlərin siyasi "çətiri" kifayət qədər böyük olub. Bu seçkilər nəticəsində Azərbaycanın bütövlükdə 10 siyasi partiyası parlamentə keçib. Bu partiyaların arasında ölkənin ictimai-siyasi palitrasında mühüm yer tutan iri müxalifət partiyaları - AXCP, AMİP, Müsavat olub.

2000-ci ildə keçirilən parlament seçkilərində səhnə tamamilə dəyişir. AXCP ağlagəlməz deputat korpusu qazanır. Seçkilərdə AXCP-dən 8 nəfər millət vəkili statusu qazanır. 2000-ci il Etibar Məmmədovun rəhbərlik etdiyi AMİP-ə də ciddi zərbə vurur. Rəhbərlik Milli Məclisə keçə bilmir. Həmin seçkilərdə Vətəndaş Həmrəyliyi Partiyasından 3 nəfər, Kommunist Partiyasından 2 nəfər parlamentə düşə bilir.

2005-ci il seçkilər bütünlüklə majoritar qaydada keçirildiyi üçün partiya siyahısı ilə marafona qatılmaq əhəmiyyətini itirir. AXCP və AMİP parlament divarlarını keçə bilmir. Əvəzində böyük siyasi qalmaqaldan sonra ilk dəfə olaraq Müsavat 4 nəfərlik heyətdə Milli Məclisə daxil olur. AXP-də Pənah Hüseyn 1993-cü ildən sonra ilk dəfə mandat qazanır.

7 noyabr 2010-cu il parlament seçkisinin ilkin rəsmi nəticələrinə görə, Vətəndaş Həmrəyliyi (3 mandat), Ümid (1 mandat), Bütöv Azərbaycan Xalq Cəbhəsi (1 mandat), Demokratik İslahatlar (1 mandat), Böyük Quruluş (1 mandat), Ədalət (1 mandat), Vətəndaş Birliyi (1 mandat) və Sosial Rifah (1 mandat) partiyaları qazanır.

2015-ci ildə Sosial Demokrat Partiyası (Araz Əlizadə), VHP, Milli Dirçəliş Partiyası(Fərəc Quliyev) və Vəhdət Partiyası(Tahir Kərimli) üçün də düşərli olur. 2020-ci ildə bu siyahıdan yalnız T.Kərimli mandatını saxlaya bilib.

Bəs bu seçkilərdə necə? Seçki bloku yaradıla bilərmi? Siyasi partiyalar hansısa seçki dairələrində anlaşa bilərmi və sairə suallarla müxalif partiyalara suallar ünvanladıq.

**AĞ Partiya başqanı Tural Abbaslı yalnız müəyyən dairələrdə namizədlər məsələsində güzəştə gedə biləcəklərini qeyd etdi:** "Hələlik AG Partiya olaraq, hansısa siyasi qüvvə, partiya ilə blok şəklində seçkilərə getmə haqqında bir fikrimiz yoxdur. Elə bir niyyətimiz də yoxdur. Belə bir təklif də gəlməyib. Artıq demək olar ki, seçki prosesinin başlaması üçün son günləri sayırıq. Seçki blokunun yaradılması, şərtlərin razılaşdırılması üçünsə zaman da qalmayıb. Bu baxımdan seçki bloku yaratmaq hazırda aktual deyil. Həm də AĞ Partiya olaraq, biz ideoloji partiyayıq. Ona görə də hər partiya ilə bu və ya digər formada bir araya gələ, yaxud bir blokda birləşə bilmərik. İdeoloji dəyərlərimizi daşımayan, ona yaxın olmayan partiyalarla heç bir halda bir araya gəlməyimiz mümkünsüzdür. Amma bu seçkilərdə çox böyük ehtimal ki, ayrı-ayrı dairələrdə digər partiyalarla qarşılıqlı razılaşma ilə güzəştlər ola bilər. Hansısa partiya bir dairədən bizim namizədin xeyrinə namizəd verməz, yaxud biz həmin dairədən o namizədin qarşısına iddiaçı çıxarmarıq. Funksional əməkdaşlıq mümkündür. Seçkilərin birgə müşahidə edilməsi üçün razılaşma əldə edə də olar. Seçki pozuntularına qarşı birgə fəaliyyətlə bağlı ümumi bir fikir mübadiləsi aparmaq da mümkündür. Yaxud bunun nəticələrinin aradan qaldırılması üçün birgə addımlar da atıla bilər. Amma hələ ki seçki bloku, seçki birliyi adına nəsə bir birlik yaratmaq fikrində deyilik".

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev yaranan yeni şəraitdə seçkilərə gedildiyini söylədi**: "Ayrı-ayrı partiyalar nə fikirləşirlər, bunu özləri bilərlər. Onu heç şərh etmək niyyətində də deyiləm. Nəzərə alaq ki, indi yeni bir şərait yaranıb. İstər siyasi partiyaların gücü, istərsə də ölkədə, regionda və dünyada gedən proseslər baxımından yeni şərait yaranıb. Yeni şərait nəticəsində də biz seçkilərə gedirik. Bilirsiniz ki, qarşıda çox ciddi beynəlxalq tədbirlər gözlənilir. Azərbaycan həmin tədbirləri keçirməlidir. Nəzərə alaq ki, bu seçkilər həm də ölkəmizin işğal altında olan torpaqlarının azad edilməsindən sonra keçirilir. Eyni zamanda onu da nəzərə alaq ki, artıq yeni dünya düzəni qurulur. Bu istiqamətdə xeyli işlər gedir".

**Partiya sədri siyasi əməkdaşlıq və s. kimi hallaların keçmişdə qaldığını da söylədi**: "Köhnə siyasi partiyaların hegemonluq dövrləri çoxdan gedib. Yeni şərait yaranıb, yeni güclər ortaya çıxıb. Onu da deyim ki, artıq maskalar da cırılıb. Ayrı-ayrı xarici qüvvələrin buradakı uzantıları öz mövqelərini ortaya qoyurlar. Ruspərəstlər açıq-aydın o mövqedən çıxış edirlər. Qərbin müəyyən dairələrinin "uşaqları" da dəstək mövqeyi sərgiləyirlər. İranın mövqeyini müdafiə edənlər ayrı qüvvələrdir. Belə bir şəraitdə biz seçkilərə gedirik. Biz Böyük Azərbaycan Partiyası olaraq, heç bir qüvvə ilə koalisiyaya getmək fikrində deyilik. Amma ölkənin milli demokratik düşərgəsinin təmsilçiləri ilə müəyyən dairələrdə razılığa gələ bilərik. Burada da qeyri-adi heç nə yoxdur. Amma xarici təsir dairəsində olan siyasi təşkilatlarla heç bir əməkdaşlığımız nəzərdə tutulmur. Nəzərinizə çatdırım ki, bir neçə ay öncə keçirilən növbədənkənar prezident seçkiləri keçirildi. Vaxtilə hegemonluq edən partiyaların heç biri bu seçkilərdə iştirak edə bilmədi. Amma Böyük Azərbaycan Partiyası bu seçkilərə qatıldı. Hesab edirəm ki, çox doğru qərarımız idi. Uğurlu təbliğat apardıq. Təşkilatlanma yolunda xeyli işlər görüldü. İndi növbədənkənar seçkilər yenə baş tutacaq. Partiyamızın öz taktikası var. Bu taktikaya uyğun şəkildə addımlar atılacaq. Namizədlər müəyyən olunub. Bu proses gedir. Yenə də bir daha deməyi vacib sanıram ki, hər hansı bir siyasi partiya ilə blok şəklində seçkilərə getmək fikrimiz yoxdur. Amma ayrı-ayrı dairələrdə yuxarıda dediyim kimi, güzəştlərə gedə bilərik. Xüsusilə yeni siyasi qüvvələrlə bu şəkildə razılaşmalara gedə bilərik, müəyyən dairələrdə güzəştlər oluna bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**




# Müsavat və AMİP-in seçki qərarı



**Milli Məclisdə çoxluq təşkil edən YAP-çı deputatlar növbədənkənar parlament seçkilərinin keçirilməsi təşəbbüsü ilə çıxış ediblər. Onların müraciəti Milli Məclisdə digər partiyaları təmsil edən deputatlar, habelə bitərəflər tərəfindən dəstəklənib.**

Milli Məclis Konstitusiyanın 95-ci maddəsinin 2-ci hissəsini rəhbər tutaraq qərara alıb ki, parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Prezidentə müraciət edilsin. Qərar layihəsi səsverməyə çıxarılaraq qəbul edilib.

İndi ictimaiyyət Prezidentin məsələyə reaksiyasını gözləyir. Böyük ehtimalla növbədənkənar parlament seçkiləri sentyabr ayında baş tutacaq.

Maraqlıdır, müxalifdətə olan iki siyasi partiyanın lideri də seçkiyə gedəcəkmi, namizəd olmaq istəyəcəkmi? Söhbət Müsavat və Milli İstiqlal partiyalarının liderləri İsa Qəmbər və Etibar Məmmədovdan gedir.

Modern.az saytı hər iki təşkilatla əlaqə saxlayıb.

**Müsavat Partiyasının Mərkəzi İcra Aparatının rəhbəri Gülağa Aslanlı bildirib ki, seçki günü dəqiq elan edildikdən sonra partiya öz mövqeyini bildirəcək:** "Müsavat Partiyası hər zaman seçkilərdə iştirak etmək arzusundadır. Çünki Müsavat Partiyasının nizamnaməsində hakimiyyətə yalnız seçkilər yolu ilə gəlmək xətti açıq şəkildə göstərilib. Seçkilərə meyilli partiyayıq. Amma seçki günü dəqiq elan edildikdən sonra bu haqda qərarı Müsavat Partiyasının Məclisi verir. Məclisin qərarını gözləyək. Əlbəttə ki, partiyamızın başqanı İsa Qəmbərin də namizəd olub-olmayacağı müzakirələrdən sonra məlum olacaq".

**Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) Siyasi Şurasının üzvü Əli Orucov istənilən halda seçkilərdə iştirak edəcəklərini bildirib:** "Biz referendumun olmasını gözləyirdik. Müəyyən dəyişikliklərin keçirilməsi çox vacib idi. Xüsusilə də proporsional seçki sisteminin bərpa olunmasına tərəfdarıq. Təəssüf ki, nə bu, nə də digər məsələlərdə dəyişiklik oldu. Budəfəki parlament seçkiləri əvvəlkilərdən fərqlənəcək. Seçkilərdən sonra parlamentin keyfiyyət göstəricisi yüksələcək. Partiya olaraq seçkilərə hər zaman hazırıq. Seçkilərin vaxtını təyin etmək Prezidentin müstəsna səlahiyyətidir. Prezident seçkilərin tarixini elan etsə, bir qədər də artıq güclə prosesə qatılacağıq. İstənilən halda seçkilərdə iştirak edəcəyik".

**AMİP Siyasi Şurasının üzvü deyib ki, onlar partiyanın lideri Etibar Məmmədovun böyük siyasətə qayıtmasını istəyirlər:** "Etibar Məmmədovun seçkilərdə iştirak edib-etməməsi onun şəxsi qərarından asılıdır. Etibar Məmmədovun böyük siyasətə qayıdışı bizim və Azərbaycan xalqının böyük bir hissəsinin istəyidir. Amma elə məsələlər var ki, bunu partiya həll etmir. Məsələ Etibar bəyin öz qərarına bağlıdır".

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

**Mədəniyyət Nazirliyi ötən həftə Bakı şəhərində yerləşən bir sıra tarixi binalarda aparılan təmir-bərpa və abadlıq işləri ilə bağlı açıqlama yaydı. Sənəddə diqqətçəkən məqam qurumun 2000-ci illərin əvvəllərində "qəbuledilməz üsullarla" aparılan təmir-bərpa işlərinə toxunması olub:**



# Abutalıbov rəsmi ittihamlara niyə susur?

## Şeyx Əbdül Mahmudbəyov: "Bir az da vəzifəsində qalsaydı, "Qız qalası"nı da uçurdub, yerinə göydələn tikəcəkdi"

"Təəssüflə etiraf etmək lazımdır ki, son illər ərzində abidələrimiz məhz istifadəçilər tərəfindən ciddi təsirlərə məruz qalıb - qapı-pəncərə ətrafındakı daş fasadlar rənglənib, balkon və eyvanlar şüşələnib, fasadlarda müxtəlif naqillər və borular çəkilib, birinci mərtəbələrdə fasadlar müasir materiallarla üzlənib, kondisionerlər və reklamlar quraşdırılıb və s. 2000-ci illərin əvvəllərində yuxarıda qeyd olunan qanunsuz əlavələri aradan qaldırmaq üçün fasadların ümumi təmizlənməsi, o cümlədən qəbuledilməz üsullarla, eləcə də bir çox binaların, o cümlədən daş binaların bir rəngə boyanması baş verib. Bəzi hallarda memarlıq abidələrinin nəinki tarixi görkəmi itirilib, tikililərə bərpası mümkün olmayan ziyan dəyib. Məsaməli əhəngdaşının müasir boyalarla rənglənməsi ona gətirib çıxarmışdır ki, bu gün daş örtüklərin müəyyən yerlərdə, xüsusilə abidələrimizə gözəllik yaradan təkrarsız memarlıq detallarının ovulması baş tutub".

**Bəllidir ki, 2001-2018-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov olub. Həmin dövrdə paytaxtın baş memarı olan Eldar Qasımzadə də müsahibələrinin birində Hacıbala Abutalıbovla işləyə bilmədiyi üçün vəzifəsindən getdiyini açıqlamışdı:** "Mən dedim ki, şəhərin baş memarı olduğum üçün hesab edirəm ki, bu layihə bu cür olmalıdır. Hacıbala müəllim də cavab verdi ki, Bakının başçısı da mənəm, memarı da mənəm, hakimi də mənəm".

Görünür, Mədəniyyət Nazirliyi 2000-ci illərin əvvəllərində qəbuledilməz üsullarla paytaxtda tarixi binaların rənglənməsi məsələsinə toxunarkən özünü "Bakının hakimi" elan edən Hacıbala Abutalıbovun həmin dövrdəki fəaliyyətlərini nəzərdə tutub.

Bəs Hacıbala Abutalıbov rəsmi ittihamlara nə deyir?

Məsələ ilə bağlı "Yeni Müsavat" olaraq Hacıbala Abutalıbovun mövqeyini öyrənməyə çalışsaq da, telefon zənglərimiz cavabsız qaldı.



Qeyd edək ki, abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati, intizam və mülki məsuliyyət daşıyırlar. Abidələrə vurulan zərərin ödənilməsi Azərbaycan Respublikası mülki qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Ödənilmiş vəsait abidənin bərpası, tədqiqi və ya qorunması tədbirlərinin maliyyələşdirilməsinə yönəldilir.

"Hacıbala oturub Qax rayonunun Sarıbaş, İlisu kəndlərindəki villalarında, orada istirahət edir. Tapmaq istəsəniz, oradadır. O, mənim xeyrimə çıxarılan 3 məhkəmə qətnaməsini icra etmədiyinə görə 3 ildən 7 ilə qədər həbs cəzası ala bilər". Bu barədə **Xalq artisti Şeyx Əbdül Mahmudbəyov** "Yeni Müsavat"a açıqlamasında deyib. Xalq artisti xatırladıb ki, zamanında Abutalıbovun özbaşınalığı ucbatından öz evindən məhrum olub: "Nəsimi rayon Mirzə Ağa Əliyev küçəsində yerləşən, həyəti parka açılan çox gözəl evim var idi. O məhəllədə köhnə bakılılar yaşayırdı. Lakin illər öncə həmin ərazidə "Qış parkı" salınarkən milyonlar qazanmaq üçün başladılar orada tələsəm-tələsik parnik, dibçək ağacları basdırmağa. Həmçinin ərazinin yeraltı strukturları nəzərə almadan tikinti işləri aparılmağa. Halbuki həmin ərazi çökmələr, sürüşmələr var. Beləliklə, heç bir hazırlıq görmədən milyonlar qazanmaq üçün hər şeyi verdilər ekskavatorun ağzına. Bir dəfə isə gecənin bir aləmində evimin düz yanında 8-9 metr yer qazıb, qaraj düzəltmişdilər. Yaranmış vəziyyətlə bağlı dəfələrlə Hacıbala Abutalıbova müraciət etsəm də, heç bir nəticəsi olmadı. Dəfələrlə məhkəmə mənim xeyrimə qərar versə də, Abutalıbov 3 məhkəmə qətnaməsini yerinə yetirməkdən qaçır. Lakin bunun özü cinayət məsuliyyəti yaradır. Yəni ya Abutalıbov məsuliyyətə cəlb olunub, həbs edilməlidir, ya da mənim evimi necə dağıdıbsa, onu yerinə qoymalıdır. O ki qaldı Abutalıbovun dövründə Bakıdakı tarixi binalara, mədəni abidələrə zərər vurulmasına, Abutalıbov zamanında "Qış parkı" salmaq adı ilə dövlətdən küllü miqdarda pullar taladı. Qışa aidiyyəti olmayan guya "Qış parkı" saldı - altı qara, üstü beton. Hətta bahalı parnik ağacları gətizdirdi, indi iki ildən bir onları dəyişdirirlər, çünki işə yaramır. Əldə etdiyi milyonlarla indi Qaxın kəndlərində kef edir. "Qış parkı" salınanda ərazidə möhtəşəm, Azərbaycanda analoqu olmayan üçmərtəbəli, ağ, mərmərdən tikilmiş binanı uçurtdular. Bu bina Nobel qardaşlarına məxsus idi. Bina o qədər möhtəşəm tikilmişdi ki, bulduzerlər onu dağıtmaqda çətinlik çəkirdi. Dünyanın hər yerində bu cür binalar şərəf və ləyaqətlə qoruyub, saxlayırlar. Yoxsa ki "Bakı mənimdir, Bakı mənim şəhərimdir" deyə-deyə Abutalıbov gözəl Bakını acınacaqlı, bərbad vəziyyətə saldı. Dövlətdən "pul yemək" üçün tarixi binaların divarlarını qaşıyıblar. Dəfələrlə buna etiraz edirdim ki, bu cür binaların divarlarını qaşımaq olmaz, onun daşlarını qorumaq, xüsusi avadanlıqlara bərpa etmək lazımdır. Məndən şikayət etmişdilər ki, "Mahmudbəyov bizi qoymur işləməyə". Ən dəhşətlisi burasındadır ki, Bakıda tarixi binaların qorunması, onlara zərər vurulmaması haqqında mətbuatda, mediada səsimi ucaldanda, buna görə tənqidlərə məruz qalanda heç kəs səsini çıxarıb, Bakı haqqında fikirləşmirdi. Abutalıbovun dövründə Bakının siması, xarakteri, obrazı itdi, dəyişdi, milli mədəni arxitekturamız eybəcər hala salındı. Bakı bu gün "köhnə daraq dişinə" bənzəyir, əndirəbadi göydələnlərlə bərbad vəziyyətə salınıb. Heç bir şəhərsalma mədəniyyətindən, estetikadan söz gedə bilməz. Harada, necə gəldi göydələnlər tikiblər. Bir binada birinin mətbəxi, o biri binadakının yatağına, qonaq otağına baxır, məcbursan ki, bütün günü pərdələri bağlı vəziyyətdə saxlayasan.

Bir sözlə, Abutalıbov Bakını xarabaya çevirib, eybəcər göydələnlərlə yükləyib. Bircə "İçərişəhər" qalıb. Abutalıbov bir az da qalsaydı, "Qız qalası"nı uçurdub, yerinə göydələn tikəcəkdi. Bu baxımdan hesab edirəm ki, Bakının bu günə salınması böyük istintaq işidir. Onu bu günə salanlar qanun qarşısında cavab verməlidir, Abutalıbov da başda olmaqla..."

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



## "Təəssüf ki, bəzi məmurlar hələ də bəd əməllərdən çəkinmir"

### Fəzail Ağamalı: "Elan olunmuş korrupsiyaya qarşı mübarizənin ardıcıl və sistemli davam etməsi..."

**"Korrupsiyaya qarşı mübarizə və cəmiyyətin inkişafına mane olan neqativ halların aradan qaldırılması ölkə Prezidentinin müəyyən etdiyi siyasətin tərkib hissəsidir. Xatırlayırsınızsa, bir neçə il bundan öncə Prezident İlham Əliyev birmənalı şəkildə Azərbaycan dövlətinin korrupsiyaya qarşı müharibə elan etdiyini və hansı xidmətindən asılı olmayaraq heç kimə güzəşt olmayacağını bildirmişdi".**

Bunu Bakupost.az-a açıqlamasında deputat Fəzail Ağamalı son vaxtlar korrupsiyaya qarşı mübarizə çərçivəsində həyata keçirilən əməliyyatları barədə danışarkən deyib.

O, bəzi məmurların korrupsiya əməllərinin bu gün də davam etdiyini bildirib: "Çox təəssüf ki, hüquq-mühafizə orqanlarının davamlı və sistemli olaraq həyata keçirdiyi antikorrupsiya əməliyyatları bəzi tamahkar məmurlar insanları hələ də bəd əməllərdən çəkindirmir. Daşkəsən Rayon İcra Hakimiyyətində keçirilən əməliyyat da, əlbəttə, hüquq-mühafizə orqanlarının növbəti əməliyyatlarından biridir".

**Deputat ölkədə korrupsiyaya qarşı mübarizəsinin daim prioritet olduğunu bildirib:** "Korrupsiyanı doğuran, ona şərait yaradan amillər aradan qaldırılır. Bu baxımdan elektron hökumətin formalaşdırılması, ASAN Xidmətin, DOST Xidmətinin yaradılması, beləliklə, vətəndaşlarla məmurlar arasında təmasın minimuma endirilməsi, eyni zamanda dövlət müəssisələrində çalışanların əmək haqqının artırılması, onların sosial vəziyyətinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər olduqca əhəmiyyətli addımlardır".

**F.Ağamalı bundan nəticə çıxarmayanlara qarşı hüquq-mühafizə orqanlarının tədbir gördüyünü bildirib:** "İki istiqamətdə ciddi və ardıcıl həyata keçirilən tədbirlər korrupsiya hallarının xeyli dərəcədə aşağı düşməsinə səbəb olur. Gəlin etiraf edək ki, hər halda Azərbaycan 5-10 il bundan əvvəlki Azərbaycan deyil. İndi məmurların fəaliyyətində bu cür hallar çox nadir və epizodik mahiyyət daşıyır. Digər tərəfdən, elan olunmuş korrupsiyaya qarşı mübarizənin ardıcıl və sistemli davam etməsi təbii ki, bütövlükdə neqativ halların aradan qaldırılmasına hədəflənmiş məqsədlərin yerinə yetirilməsinin davamlılığını göstərir".

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

**Azərbaycanın bir sıra ərazilərində hava şəraitinin pisləşməsi, güclü külək əsməsi, yağış və dolu yağması gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaydığı xəbərdarlığa əsasən iyunun 26-sı axşamdan 27-si səhərədək Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir, bəzi yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var.**

Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5 dərəcə aşağı enəcək.

Azərbaycanın rayonlarında iyunun 26-sı səhər şimal və qərb rayonlarından başlayaraq, 27-si axşamadək bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Gəncə-Qazax, Daşkəsən-Gədəbəy, Qarabağ və Şərqi Zəngəzur, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Naxçıvan MR, Mərkəzi Aran, Lənkəran-Astara bölgəsində yağıntıların intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Havanın temperaturunun ötən günlərlə müqayisədə 5-9 dərəcə aşağı enəcəyi gözlənilir.

Çaylarda sululuğun artacağı, Böyük və Kiçik Qafqazın və Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.

# Tufan, dolu, leysan taxıl biçininə əngəl olacaqmı?

## 2024-cü ilin ilk 6 ayı ərzində Aqrar Sığorta Fonduna əkin sahələrinə dəyən zərərlər üzrə 1200-ə yaxın müraciət daxil olub




Qeyd edək ki, aprelin sonlarından başlayaraq indiyədək dəfələrlə bölgələrdə belə kəskin hava müşahidə olunub, sel, dolu, tufan kənd təsərrüfatına ciddi zərər vurub. Hazırda ölkədə taxıl biçini gedir. Kənd Təsərrüfatı Nazirliyində taxıl biçininin təşkili ilə bağlı yaradılmış operativ qərargahın məlumatına görə, iyunun 24-dək payızlıq əkin sahələrinin 40 faizində biçin başa çatıb: "Artıq 403 503 hektar sahədə biçin yekunlaşıb. Sahələrdən 878 173 ton arpa, 366 723 ton buğda yığılıb. Arpa sahələrinin 69,5 faizində, buğda sahələrinin isə 18,4 faizində biçin prosesi başa çatıb. Hazırda orta məhsuldarlıq arpa üzrə 29,7 sentner, buğda üzrə isə 34 sentner təşkil edir".

Nazirlik bildirir ki, hazırda respublikanın 40-a yaxın rayonunda intensiv biçin prosesi gedir. Bu rayonlardan Ağsu, Biləsuvar, Neftçala, Sabirabad, Saatlı, Salyan, Ucar, Kürdəmir rayonlarında biçin səviyyəsi 70 faizi keçib, Naftalanda isə biçin başa çatıb.

**Azərbaycan Aqrar Sığorta Fondundan "Yeni Müsavat"a verilən məlumata görə, iyunun 20-dək son bir həftə ərzində əkin sahələrinə dəymiş zərərlərlə bağlı fonda 120-dən artıq müraciət daxil olub:** "Son günlər respublikanın əksər rayonlarında müşahidə edilən güclü külək, qasırğa, fırtına, dolu və güclü yağışlar əkin sahələrinə və təsərrüfatlara zərər vurub. Bununla bağlı Aqrar Sığorta Fonduna müraciətlər artmaqdadır. İyunun 15-21 tarixlərində əkin sahələrinə dəymiş zərərlərlə bağlı fonda 120-dən artıq müraciət daxil olub. Müraciətlər Şamaxı, Qobustan, Şəki, Oğuz, Beyləqan, Zaqatala, Hacıqabul, İsmayıllı, Kürdəmir, Ağsu, Füzuli, Yevlax, Ağcabədi, Xocavənd, Tərtər, Salyan, Balakən, Ağdam, Tovuz, Zərdab, Goranboy, Cəlilabad, İmişli, Ağstafa, Biləsuvar, Şəmkir, Qusar, Qax və digər rayonlardan daxil olub. Zərərlərin dəyməsi ilə bağlı fonda müraciətlər dolu, intensiv yağışlar, güclü külək, qasırğa, fırtına, sel-subasma kimi hadisələri əhatə edir.

Təbiət hadisələri fondun sığorta etdiyi əksər bitki növləri üzrə - buğda, arpa, qarğıdalı, pambıq, nektarin, şaftalı, alma, armud, ərik, üzüm, heyva və sair bitkilərə zərər vurub".

**Fonddan bildirildiyinə görə, ümumilikdə 2024-cü ilin ilk 6 ayı ərzində Aqrar Sığorta fonduna əkin sahələrinə dəyən zərərlər üzrə 1200-ə yaxın müraciət daxil olub. Bunlardan 800 hadisə son 2 ayda qeydə alınıb**: "Aqrar Sığorta Fonduna müraciətlərin bir hissəsi sığortası olmayan əkin sahələri üzrə daxil olub. Belə müraciətlər üzrə ödənişlər edilmir. Sığortalı təsərrüfatlardan daxil olan müraciətlər üzrə hadisələrin araşdırılması üçün aqrar sığorta ekspertləri təyin edilib və ərazilərə ezam edilib. Bu proses davam etməkdədir. Hazırda fondun onlarla aqrar sığorta eksperti bölgələrdə təsərrüfatlara dəyən zərərlərin hesablanması ilə məşğuldur".

**Fondun nümayəndəsi Əli Əhmədov qeyd edir ki, son iki aydakı müraciətlərin çoxu taxıl bitkiləri ilə bağlıdır**: "Son iki ayda müraciətlərin sayı 900-ü keçir artıq. 41 növ bitki üzrə 48 növ məhsulu sığortalayarıq. Elə bitkilər var iki növ məhsulunu sığortalayırıq. Məsələn, qarğıdalının dənini, gövdəsini ayrılıqda sığortalayırıq. Yaxud soğanı göy halda, bir də yetişmiş halda sığortalayırıq. Təbiət hadisələrinə görə müraciətlərin yarıdan çoxu buğda, arpa sahələrinin payına düşür. Ondan sonra qarğıdalı gəlir".

**Sabirabad rayonunda fəaliyyət göstərən fermer Əfras Əsgərovun "Yeni Müsavat"a dediyinə görə, Aran bölgəsində yağıntıların mənfi təsiri ən çox arpa üzrə qeydə alınıb:** "Arpanın çiçəkləyən vaxtında güclü yağışlar düşdü, mayalanma yaxşı getmədi. Sünbüllər çox balaca oldu. Deyim ki, bütün ölkə boyu belə oldu, bu il arpanın məhsuldarlığı çox aşağı oldu. Amma buğdada vəziyyət pis deyil, elə keçənilki vəziyyətdir. Məhsuldarlıq bizim sahələrdə 27-28 sentnerdir. Doğrudur, ölkə üzrə daha yüksək məhsuldarlıq çıxır. Bu, bir sıra rayonlarda xüsusi sahələrdə əldə olunan yüksək məhsuldarlığın hesabınadır".

**Ə.Əsgərov bildirir ki, Aran bölgəsində taxıl biçini yekunlaşmaq üzrədir, dağlıq və dağətəyi bölgələrdə yeni başlayır:** "Ola bilsin ki, o rayonlarda yağıntılar biçinə mənfi təsir göstərsin".

Onu da qeyd edək ki, Azərbaycan ərzaqlıq buğda ilə özünü təmin etməyən ölkələr sırasındadır. Daxili tələbatı təmin etmək üçün ölkəyə hər il əsasən Rusiya və Qazaxıstandan 1,2-1,3 milyon ton buğda idxal olunur. Rəsmi statistikaya əsasən, 2023-cü ildə ölkədə 1 milyon 833,8 min ton buğda istehsal edilib, məhsuldarlıq 33,8 sentner olub. Bu il üçün Azərbaycanda həm payızlıq, həm də yazlıq buğda əkinlərinin sahəsində azalma diqqəti cəlb edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə 598,3 min hektar sahədə payızlıq buğda əkilib ki, bu da əvvəlki illə müqayisədə 9,9 faiz azdır. Bundan əlavə, 2023-cü ildə yazlıq buğda əkinləri 4 799,2 ha olubsa, bu il cəmi 584,3 ha sahədə belə əkin aparılıb.

Azərbaycan ərazisi qlobal iqlim dəyişikliyinin təsirinə ən çox məruz qaldığı ölkələrdən biridir. Rəsmi məlumata əsasən, 2020-ci ildə 68.6 min ha, 2021-ci ildə 42.2 min ha, 2022-ci ildə 101.4 min ha və 2023-cü ildə 178.3 min ha sahədə əkinlər quraqlıq səbəbindən tamamilə məhv olub. Bu isə müasir və qənaətli suvarma sistemlərinin tətbiqini son dərəcə aktuallaşdırır.

Prezident İlham Əliyevin 2022-ci ilin iyulunda imzaladığı fərmanla pivot suvarma sisteminin tətbiqi ilə keyfiyyətli ərzaqlıq buğda istehsal edən fermerlərə hər tona görə stimullaşdırıcı subsidiya müəyyən edilib. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Subsidiya Şurasının qərarı ilə 2024-cü il üzrə bu subsidiyanın həcmi 100 manat olaraq müəyyənləşdirilib.

2023-cü ildə Azərbaycanda müasir suvarma sistemi olan sahələr cəmi 98,5 min hektar təşkil edib. Bu, 1,5 milyon hektarlıq ümumi əkin sahələri nisbətdə çox cüzi bir göstəricidir. Hesablamalara görə, 150 min ha sahədə müasir suvarma sistemi və texnologiyaların tətbiq olunması ilə buğda yetişdirməklə, Azərbaycanda ərzaqlıq buğda təminatını ərzaq təhlükəsizliyini təmin edəcək səviyyəyə çatdırmaq mümkündür.

Azərbaycan hökuməti bu məqsədə çatmaq üçün daha bir dəstək mexanizmini işə salıb. Belə ki, bu il iyunun 5-də Nazirlər Kabineti ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi qaydasını təsdiqləyib.

Qaydanın tətbiqi müasir suvarma sisteminin alınmasına özəl bankların vəsaitlərinin cəlb olunmasına imkan verəcək. Belə ki, qaydaya uyğun olaraq sahibkarlıq subyektlərinə veriləcək 280 (iki yüz səksən) milyon manat kredit portfeli 168 (yüz altmış səkkiz) milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilir.

Bu tədbirlərin real nəticəsi yəqin ki, yaxın 2-3 ildə özünü göstərəcək. Ona qədər Azərbaycan buğda idxalını davam etdirməyə məcburdur. Maraqlıdır ki, bu il Azərbaycana buğda idxalında ciddi azalma diqqəti cəlb edir. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, 2023-cü ilin ilk dörd ayında ölkəyə xaricdən əsasən Rusiyadan olmaqla 450.152 min ton (135 milyon dollarlıq) buğda idxal edilibsə, cari ildə bu rəqəm 328 min 542 tona (72.676 milyon dollar) düşüb. Buğdanın bir tonu 2023-cü ilin beş ayında Azərbaycana 299 dollara başa gəldiyi halda, cari ilin eyni dövründə bu rəqəm 221 dollara qədər azalıb.

Azərbaycanın əsas buğda idxalı bazarı olan Rusiyada buğda qiymətləri ucuzlaşır. Bunun əsas səbəbi Türkiyənin buğda alışlarını oktyabra qədər dayandırmasıdır. Rusiyadan ildə 3-4 milyon ton buğda alan Türkiyənin bu addımı şimal qonşumuzun məhsulunun ucuzlaşmasına səbəb olub. Bu isə Azərbaycandan olan alıcılar üçün daha əlverişli qiymət şərtlərinin formalaşması deməkdir.

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# Dövlət qurumlarına qəbul prosesində yeni model

## Ekspertlər hesab edir ki, vakant yerlərin daha çox olması nəzərə alınmalıdır, çünki...

**Sentyabr ayında dövlət qulluğuna qəbulla əlaqədar səriştə modelini sınaqdan keçirəcəyik. Bunu Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, bundan əvvəl səriştə modelinin sonuncu versiyası ilə bağlı beynəlxalq ekspertlərlə fikir mübadiləsi aparılacaq: “Bu, çox vacib mərhələdir. Bu model üzrə 2 ildir işləyirik. Artıq bu modelin tətbiqinə başlayırıq. 2024-cü ildə bu modelin sınağı, 2025-ci ildə isə müvafiq qanunvericilikdə aparılan dəyişikliklə dövlət qurumlarına işə qəbul prosesini bu modellə həyata keçirəcəyik”.**

O əlavə edib ki, səriştə modelinə əsaslanan qəbul daha keyfiyyətli, bacarıqlı dövlət qulluğunda bütün prosesləri şəffaf keçirməyə imkan verəcək.

Nəzərə çatdıraq ki, bu vaxta kimi dövlət qulluğuna keçirilən imtahanlardan narazılıqlar var. Namizədlər həm imtahanların olduqca çətin olduğu bildirilir. Eyni zamanda müsahibə mərhələsindən keçənlərin sonradan işlə təmin olunmasında da problemlərin olduğu deyilir.

Qeyd edək ki, ötən il Dövlət İmtahan Mərkəzi dövlət qulluğunun inzibati vəzifələrinin tutulması məqsədilə hər biri 6 imtahan olmaqla A və B növləri üzrə ümumilikdə 12 test imtahanı keçirib, 16200 namizəd iştirak edib. Bildirilib ki, imtahanda iştirak edənlərdən 4709 nəfəri uğurlu nəticə əldə edib. Hesabat dövrü ərzində 110 dövlət orqanında vakant olan 1431 inzibati vəzifənin tutulması məqsədilə müsabiqənin müsahibə mərhələsi üzrə elan verilib. Həmin vəzifələrin 150-si inzibati rəhbər vəzifələrə (A növü), 1281-i isə inzibati icraçı vəzifələrə (B növü) aid olub. Müsabiqənin müsahibə mərhələsinə ən çox vəzifəni Kənd Təsərrüfatı Nazirliyi (336 vəzifə) çıxarıb, ən çox müraciət isə Qida Təhlükəsizliyi Agentliyi üzrə (2073 müraciət) qeydə alınıb. Ötən il ərzində müsahibələrdə uğur əldə etmiş namizədlər 40-ı məhkəmə orqanı olmaqla, 67 dövlət orqanında 1003 vakant vəzifəyə təyin edilib. Ən yüksək təyinat müsabiqə üzrə (493/49.15%) müşahidə edilir. Müsabiqədə uğur qazanmış şəxslər arasında ən çox təyinatı Qida Təhlükəsizliyi Agentliyi, İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi aparıb. Dövlət qulluğuna qəbulun müsabiqə əsasında aparıldığı tarixdən ehtiyat kadrların təyinatında ən yüksək göstərici hesabat ili ərzində qeydə alınıb. Belə ki, 13-ü məhkəmə orqanı olmaqla, 38 dövlət orqanında 364 vəzifəyə ehtiyat kadrlar təyin edilib. Müsabiqədən müvəffəqiyyətlə keçərək ehtiyat kadrlar siyahısına daxil edilmiş şəxslər 2022-ci ildə 178 analoji vəzifələrə təyin edilmişdirsə, 2023-cü ildə bu say 47.75 % artaraq 263 vəzifə olub. Ümumilikdə 2022-ci illə müqayisədə 2023-cü ildə dövlət qulluğu üzrə imtahanlarda iştirak edənlərin sayı 13.7% artıb.

**Təhsil eksperti Elçin Əfəndi mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini bildirib**: “Dövlət qulluğu üzrə keçirilmiş imtahanlarda əsas narazılıq, şikayət ondan ibarətdir ki, namizədlər vakant yerlərin açıqlanmasını gözləyirlər. Bunun üçün müəyyən bir dövr keçir. Bəzi hallarda isə müvafiq olaraq vakant yerlərdə iştirak edə bilmirlər. Aldıqları sertifikatın belə müddəti bitə bilir. Fikrimcə, gələcəkdə bu istiqamətdə vakant yerlərin daha çox olması nəzərə alınmalıdır, bunun üzərindən imtahandan keçirilməlidir. Səriştə əsasında keçirilməsi isə konkret onların ümumi ixtisasları, dünyagörüşləri ilə bağlı verəcəkləri imtahanla bağlı olacaq. Əvvəllər bilik və bacarıqlar təkcə test əsasında daxil olub yazaraq yoxlanırdısa, indi yazılı



formada da götürülməsi düşünülür, misal üçün, esse kimi. Dünya ölkələrinin praktikası öyrənilib, ümid edək ki, bu dəfə namizədlər həm müsahibə, həm müsabiqə mərhələsində, həm də vakant yerlərin seçilməsi mərhələsində narazı qalmayacaqlar”.

**Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov da mövzu ilə bağlı “Yeni Müsavat”a fikirlərini açıqladı. Ekspertə görə, DİM-in dövlət qulluğu ilə bağlı yenilikləri, yeni modelə keçməsi doğru addımdır:** “Bir var konkret normalar, qaydaların formalaşdırdığı çərçivələr, bir də var insanların şəxsi keyfiyyətləri. Burada şəxsi keyfiyyətlərdən irəli gələn norma və qaydaların tətbiqində həyata keçirə biləcəyi səriştə yönümlülükdən söhbət gedir. Bu, doğru yanaşmadır. Bunu sadə dillə ifadə etsək, dövlət qulluqçuları fəaliyyətlərini təmin edəcək səriştələrə malik olmalıdırlar. Yeni xalqla xalqın dilində danışmaq çox vacibdir. Xaricdə təhsil almış gənclərlə bağlı insanların formalaşmış fikirləri var. Nə qədər xarici dili bilsən də, işinin peşəkarı olsan da, xalqın dilini, nə istədiyini bilməli, anlamalısan. Bunun üçün də dövlət qulluqçusu müəyyən səriştələrə malik olmalıdır. Bu ölçmək də asan deyil”.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Sertifikasiyanın son nəticələri - dörd mindən çox müəllim...

## İmtahanda qaydaları pozan 4 müəllimin nəticəsi ləğv edilib




**Təkrar sertifikasiyada 4 000-ə yaxın müəllim müvafiq keçid balını toplaya bilməyib. Bu barədə Elm və Təhsil Nazirliyindən məlumat verilib.**

Qeyd olunub ki, Təhsilverənlərin Sertifikatlaşdırılması Şurasının dünənki iclasında 2022 və 2023-cü illərdə təşkil olunmuş sertifikatlaşdırma prosesindən 31 948 nəfər ibtidai sinif, Azərbaycan dili və ədəbiyyat müəlliminin uğurla keçdiyi qeyd edilib. Eyni zamanda ötən ildən sertifikatlaşdırmadan uğurla keçmiş 8 410 müəllimin əməkhaqqına 35 faiz, 23 538 müəllimin əməkhaqqına isə 10 faiz artım tətbiq olunmağa başlanıldığı vurğulanıb.

Bildirilib ki, iyunun 8-də ötən il test imtahanı mərhələsində keçid balını toplaya bilməyən müəllimlər üçün keçirilən təkrar sertifikatlaşdırma imtahanında 7 296 müəllim iştirak edib. Onlardan 3 386 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak imkanı qazanıb. Təkrar sertifikatlaşdırmada iştirak edən müəllimlərdən 3 909-u isə müvafiq keçid balını toplaya bilməyib. Eyni zamanda şuranın qərarına əsasən, imtahanda iştirak etməyən 402 müəllim də sertifikatlaşdırmadan keçməmiş hesab olunub. 4 nəfər imtahan qaydalarını pozduğu üçün nəticələri ləğv olunub.

Ümumilikdə prosesdə iştirak edən müəllimlərdən Azərbaycan dili və ədəbiyyat üzrə 95%-i, ibtidai sinif üzrə 86%-i sertifikatlaşdırma prosesində uğur qazanıb.

Xatırladaq ki, bu ilin əvvəlindən etibarən ötən il sertifikatlaşdırma imtahanından keçməyən müəllimlərə onların ehtiyaclarına uyğun Təhsil İnstitutu tərəfindən təlimlər keçirilib, müxtəlif vebinar və sınaq imtahanları təşkil olunub.

Təkrar sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi üzrə 10-13 iyunda apellyasiya müraciətləri qəbul edilib. Apelyasiyaya daxil olan müraciətlər müvafiq qaydada araşdırılıb və cavablandırılıb. Təhsilverənlərin təkrar sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsində təqdim olunan suallarla bağlı səhv aşkarlanmayıb, hər hansı bir texniki problem müəyyən edilməyib.

Qeyd edək ki, iclasın yekun nəticələri Elm və Təhsil Nazirliyinə təqdim edilib.

Təkrar sertifikatlaşdırmada minimum tələbi ödəməyən, prosesdə iştirak etməyən, eyni zamanda imtahan qaydalarını pozduğu üçün nəticələri ləğv edilən müəllimlərin müqavilələrinə əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq xitam veriləcək.

8 iyun 2024-cü il tarixində ötən il test imtahanı mərhələsində keçid balını toplaya bilməyən müəllimlər üçün keçirilən təkrar sertifikatlaşdırma imtahanında 7 296 müəllim iştirak edib.

Qeyd edilib ki, onlardan 3 386 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak imkanı qazanıb.

“Təkrar sertifikatlaşdırmada iştirak edən müəllimlərdən 3909-u müvafiq keçid balını toplaya bilməyib. Eyni zamanda imtahanda iştirak etməyən 402 müəllim də sertifikatlaşdırmadan keçməmiş hesab olunub. 4 nəfər imtahan qaydalarını pozduğu üçün nəticələri ləğv olunub.

Təkrar sertifikatlaşdırmada minimum tələbi ödəməyən, prosesdə iştirak etməyən, eyni zamanda imtahan qaydalarını pozduğu üçün nəticələri ləğv edilən müəllimlərin müqavilələrinə əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq xitam veriləcək", - deyə əlavə edilib.

YENİ MÜSAVAT
N 109 (8482) 26 iyun 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması**

# Telekanallarda elmi-mədəni və təhsil proqramları "qıtlığı"

## **Qulu Məhərrəmli:** "Bu, teleməkanın ciddi problemlərindən biridir"

## **Əhməd Qəşəmoğlu:** "Televiziyaların özünün inkişafı platforması olmalıdır, amma..."

**Bütün dünya ölkələrində təhsil, elmi-maarifləndirici, təhsil proqramlarının televiziyalarda yayımlanması cəmiyyət üçün önəmli məsələlərdən biri hesab olunur. Məhz televiziya vasitəsilə izləyicilər informasiyaları, məlumatları alır, bu baxımdan bu cür verilişlərin çoxluq təşkil etməsi zəruridir. Lakin təəssüf ki, artıq uzun illərdir telekanallarda maarifləndirici, təhsil və elmi proqramların sayı azdır.**

Məsələn, ötən il Audiovizual Şura 2023-cü ilin noyabr ayı ərzində ölkə televiziya yayımçılarının proqramlarının məzmunu ilə bağlı göstəriciləri açıqlamışdı. Qurumun monitorinqi AZTV, İTV, İdman TV, Mədəniyyət TV, ATV, Space TV, Xəzər TV, ARB, ARB24, CBC SPORT, REAL TV kanallarını əhatə edib. Analitik Kollektiv Audiovizual Şuranın açıqladığı göstəricilər əsasında Azərbaycanın telekanallarında ən çox hansı məzmunlu proqramlara yer verildiyini təhlil edib. Hesabata əsasən, televiziyalarda yayımlanan informasiya və analitik verilişlərin xüsusi çəkisi 25 faiz, reklam 16,6 faiz, idman verilişləri 15,3 faiz, musiqi və əyləncə 12,1 faiz, anons və elan 3,4 faiz, bədii filmlər (xarici) 3,9 faiz, bədii filmlər (yerli) 0,6 faiz, seriallar (xarici) 2,9 faiz, seriallar (yerli) 1,5 faiz, sənədli filmlər 1,9 faiz, sosialyönümlü 5,7 faiz, cizgi film 0,6 faiz, uşaq verilişləri 0,4 faiz, mədəni-maarif verilişləri 9,7 faiz olub.

Göründüyü kimi, Azərbaycan televiziya kanallarında elmi-mədəni, maarifləndirici, təhsil proqramlarının sayı xeyli azdır. Bəs nə etməli?

**Tele-tənqidçi, professor Qulu Məhərrəmli** mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb. Professor qeyd edib ki, elmi, mədəni, maarifləndirici verilişlərin sayının azlığı televiziya məkanında əsas problemlərdən biridir: "Bəs niyə bu cür verilişlərin sayı azdır? Hesab edirəm ki, bunun səbəbi ilk növbədə televiziyaların reytinqə daha çox meyillənməsidir. Belə bir prinsipi əsas götürürlər ki, guya o cür verilişlərə baxan yoxdur, maraq doğurmur. Bu, tamamilə yanlış və əsassız yanaşmadır. Fikrimcə, mədəniyyət və yaxud təhsil verilişləri haqqında təsəvvür doğru deyil. Çünki son illərdə məlumatlandırıcı, mədəniyyət, elmi-praktik, tədris verilişləri məzmunca, formaca kifayət qədər yenilənib. Dünya televiziya təcrübəsində belə verilişlərin çox gözəl nümunələri var, sadəcə, bizim bəzi televiziyalar o cür verilişləri həm hazırlamağa çətinlik çəkir, həm də tənbəllik edirlər. Dünya təcrübəsində istər dövlət, istərsə də özəl kanallar olsun, hamısının mədəni-maarif proqramları hazırlamaq öhdəliyi var. Məsələn, Böyük Britaniyada BBC özü maarifləndirici, çox maraqlı verilişlər təqdim edir. Eyni zamanda çox populyar olan "3-cü Kanal" adlanan kommersiya kanalı var ki, o da öhdəlik götürüb və bu tip verilişlər hazırlayır, kifayət qədər də baxılır. Əlbəttə ki, bu cür verilişlərin ciddi və təmənnasız sponsorları olmalıdır ki, müəyyən fondlar və sairə bu cür maarifləndirici verilişləri maliyyələşdirsinlər, onlara yardımçı olsunlar. Məsələn, Yaponiyanın ən böyük dövlət televiziyasının birinci proqramı universal proqramdırsa, ikinci proqramı birbaşa elm-təhsil proqramıdır və burada daha çox maarifləndirici verilişlər təq-



dim olunur. Burada dil verilişləri hazırlanır, texnologiya öyrədilir, bu da cəmiyyətin irəliləməsinə çox ciddi təsir göstərir. Ona görə də bizim televiziya rəhbərləri, proqram siyasətini hazırlayanlar bu məsələyə xüsusi diqqət yetirməlidirlər".

**Sosioloq Əhməd Qəşəmoğlu isə deyib ki, bu mövzuda hər zaman müzakirələr olub:** "Bəziləri deyir ki, bu cür verilişləri artıraq, bəziləri isə deyir, bu istiqamətdə jurnalistlərin fəaliyyəti zəifdir. Bunlar ikinci dərəcəli məsələdir. Əsas məsələ televiziyaların özünün inkişafı platformasının olmasından ibarətdir. Biz televiziyalardan elm-təhsil, mədəni-maarif mövzularında proqramlar tələb etsək də, hazırlanan proqramların keyfiyyəti bizi onsuz da qane etməyəcək. Bizə yüksək səviyyədə hazırlanmış, insanlara fayda verəcək verilişlər lazımdır. Bu baxımdan, qeyd etdiyim kimi, televiziyanın özünün inkişafı platforması olmalıdır. Dəfələrlə bu barədə çıxışlarım, təkliflərim olsa da, hələ ki bu günə qədər məsul təşkilatlardan bir dəfə də olsun mənə deyilməyib ki, bizə kömək edin".

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY**

# Gürcüstan indi də LGBT qadağasına görə hədəfdə

## **Cozef Borrel:** "Avropa İttifaqına gedən yol Gürcüstan xalqı üçün açıqdır, lakin hökumət öz gördüyü işləri davam etdirsə..."

**"Hakimiyyəti öz siyasətini davam etdirsə, Avropa İttifaqı Gürcüstana qapını bağlayacaq". AYNA xarici mediaya istinadən xəbər verir ki, bu sözləri Avropa İttifaqı (Aİ) diplomatiyasının rəhbəri Cozef Borrel rəsmi Tiflisin xarici agentlər haqqında qanun və LGBT təbliğatının qadağan edilməsi ilə bağlı hərəkətləri, qərarları barədə danışarkən deyib.**



"Aİ-yə gedən yol Gürcüstan xalqı üçün açıqdır, lakin hökumət öz gördüyü işləri davam etdirsə, bu yol bağlanacaq... Bu gün Aİ ölkələri konkret qərarlar qəbul etmir, söhbət vəziyyətin müzakirəsindən və mümkün tədbirlərdən gedir..."- Borrel vurğulayıb.

Aİ rəsmisinə görə, tədbirlərdən biri Avropa Sülh Fondunun maliyyə dəstəyinin azaldılması ola bilər. Eyni zamanda Borrel əlavə edib ki, bu cür tədbirlər "əhaliyə təsir etməməlidir".

Bundan əvvəl mətbuatda Aİ-nin Gürcüstanın xarici agentlər haqqında qəbul edilmiş qanununa cavab olaraq bir sıra tədbirləri, o cümlədən yüksək səviyyəli ikitərəfli səfərləri dayandırmaq imkanını nəzərdən keçirdiyi barədə məlumatlar yayılmışdı. Sensasiyalı qanunun qəbulu ilə yanaşı, Gürcüstan ictimai LGBT təbliğat tədbirlərini də qadağan etməyi planlaşdırır və cinsiyyətin dəyişdirilməsi əməliyyatlarının kriminallaşdırılması təklif edilir. Gürcüstanlıların viza rejimi ləğv olunsa, ölkədə sosial gərginlik arta bilərmi və sairə suallarla ekspertlərə müraciət etdik.

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli bu mövzuda Gürcüstan hökumətinin siyasətini doğru sayır:** "Bundan əvvəl də Gürcüstanda gey-parad keçirilməsi cəhdi olmuşdu. Bunun qarşısı mühafizəkar aktivistlər, keşişlər tərəfindən alınmışdı. Tiflisdəki meydanda toqquşma da olmuşdu. Gürcü hakimiyyəti prioritet məsələ kimi həmişə Avropa Birliyinə inteqrasiyası olduğunu bildirib. İndi də bu haqda söyləyirlər ki, mövqeləri dəyişməyib. Sadəcə, "Gürcü Arzusu" iqtidarı xalqlarının öz milli identikliyinin qorunmasının vacibliyinə vurğu edirlər. Fikrimcə, düz də edirlər. İstər "xarici agent", istərsə də LGBT haqqında qanun olsun, bu, Qərbin Gürcüstan kimi ölkələrə öz diktəsini qəbul etdirmək anlamına gəlir. Təbii ki, özünə hörmət edən ölkə bu cür basqıları qəbul etməz. İvanaşvili hakimiyyəti də istəyir ki, ölkələrinə Qərbdə hörmətlə yanaşsınlar. Qərbi idarə edən qlobal-liberal güclər istəyirlər ki, dünya onların istədiyi kimi olsun. Milli dövlətlər sərhədləri olmasın, mühafizəkar düşüncəyə son qoyulsun. Üçüncü dünya ölkələrini isə ümumiyyətlə, bunlar adam yerinə qoymurlar. İstəyirlər ki, Afrika, Asiya, Mərkəzi, Cənubi Amerika ölkələri bunların dedikləri ilə oturub dursunlar. Qlobal-liberal düşüncəyə malik olan müasir Qərb imperializmi bütün milli-mühafizəkar dövlətlərə ən böyük təhlükədir. Sərhədsiz zövq həyat tərzi ilə əsirlərə söykənən ənənələr arasında dünyada ölüm-dirim savaşı gedir".

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucovun fikrincə, Avropa dəyərləri və ənənələri doğma kimi Avropa məkanına inteqrasiya etmək xətti götürən dövlətlərə qəbul etdirilməməlidir:** "Hər bir dövlətin və coğrafiyanın, millətin özünün spesifik xüsusiyyətləri, min illər boyu formalaşmış ənənələri və dəyərləri var. Və bunlar da Avropa dəyərləri ilə uzlaşmaya bilər. Belə hal inteqrasiyaya mane olmamalıdır. Bir sıra ümumi prinsiplər və dəyərlərə hörmət edilməlidir. Ancaq tutaq ki, Qərb üçün keçərli olan bəzi yanaşmalar inteqrasiyaya can atan digər dövlətlər üçün, xüsusən də mühafizəkarlığını, milli adət-ənənələrini qoruyub saxlayan Cənubi Qafqaz ölkələri üçün məqbul olmaya bilər. Gürcüstan Avropaya inteqrasiyanı xarici siyasətinin prioriteti hesab edib. Avropa İttifaqı da Tiflisin İttifaqa üzvlüklə bağlı təşəbbüslərini dəstəkləyib və buna "yaşıl işıq" yandırıb. Ancaq Gürcüstan parlamentinin xarici agentlər haqqında qəbul etdiyi qanun İttifaqla Gürcüstan hakimiyyəti arasında münasibətlərə xələl gətirdi. Bu qanunun qəbulu qonşu ölkədə böyük kütləvi etiraz aksiyaları ilə müşayiət olundu və prezident qanunu imzalamaqdan imtina etdi. Əvvəla, hər bir dövlətin daxili idarəetməni və qanunlar qəbul etmək və hüquqi normalar yaratmaq öz suveren haqqıdır. Xarici agentlər haqqında qəbul edilmiş qanun əgər gürcü xalqının xoşuna gəlməyəcəksə, maraqlarına toxunacaqsa, o zaman həmin qanunun ömrü çox qısa olacaq və yenə də gürcü xalqının iradəsi ilə ləğv olunacaq. Buna Avropa İttifaqı basqısı əslində dövlətlərin daxili işlərinə müdaxilə kimi qiymətləndirilir. Gürcüstanda LGBT təbliğatının qadağan edilməsinin planlaşdırmasına Avropa İttifaqının sərt təpkisi də qətiyyən anlaşılan deyil. Gürcü ictimaiyyəti bunu belə istəyirsə, buna Aİ-nin qarşı çıxması onu göstərir ki, tərəfdaş ölkələrə bərabərhüquqlu müstəvidə deyil, yuxarıdan aşağı baxır. Gürcü xalqının yox, öz iradəsini diktə etməyə çalışır. Avropadan fərqli olaraq mühafizəkar ənənələri olan Gürcüstanda cinsini dəyişdirənlərə qarşı münasibət qıcıqlandırıcıdır. Cinsi azlıqlarla bağlı bütünlükdə Cənubi Qafqazda Qərblə müqayisədə kəskin şəkildə baxışlar fərqlənir və belə hallar cəmiyyətdə hətta nifrət hissləri yaradır. Bu coğrafiyada kişi məfhumu təkcə cinsi anlam kəsb etmir, həm də ən yüksək əxlaqi dəyərləri və keyfiyyətləri simvolizə edir. Belə olan halda, Aİ-nin baş diplomatı Cozef Borrelin hökumət gördüyü işi davam etdirərsə, Gürcüstanın Aİ-yə yolu bağlanan kimi hədələyici ritorikasını qətiyyən qəbuledilməz sayıram. Məncə, Tiflisin özünü Aİ məcbur edir ki, getdiyi yoldan qayıtsın. İttifaqın diktə xarakterli xarici siyasi kürsü qurumun cəlbediliciyinə ciddi şəkildə ziyan vurmaqla yanaşı, inteqrasiya tərəfdarı olan dövlətləri də nəinki tərəddüddə buraxır, hətta Qərb cəmiyyətinə zərərli bir cəmiyyət kimi fikir formalaşdırır. Bundan çəkinilməlidir".

**Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# YENİ MÜSAVAT

## Son səhifə

N 109 (8482) 26 iyun 2024

iyun




## Gün ərzində 10 min addım atmaq faydalı deyilmiş

**Alimlər gündə on min addım atmağın faydalarını təkzib ediblər. Belə ki, gündə cəmi 2 600 addım ürək xəstəliyi riskinizi əhəmiyyətli dərəcədə azalda bilər.**

Tədqiqat "European Journal of Preventive Cardiology" (EJPC) jurnalında dərc olunub. Alimlər atılan addımların sayı ilə ürək-damar riski arasındakı əlaqəni qiymətləndirən əvvəlki 12 tədqiqatın nəticələrini təhlil ediblər. Tədqiqatda ümumilikdə 111 mindən çox insan iştirak edib. Təhlillər müəyyən edib ki, gündə cəmi 2 517 addım yerimək bütün səbəblərdən ölüm riskini 8%, 2 735 addım isə bütün səbəblərdən ölüm riskini 11% azaldır.

Nəticələr gündə 10.000 addım atmaq çətinliyindən qorxan insanlar üçün ümidverici ola bilər. Ən böyük fayda gündə 8 763 addım atmaqdır. Belə ki, bu sayda addımlamaq ürək-damar xəstəliklərindən ölüm riskini 60% azaldır. Qeyd olunub ki, addımların sayının daha da artması əlavə fayda vermir.

## Tibb dünyasında ixtira

**Rusiyalı alimlər qan testi ilə beyin xərçəngini erkən mərhələdə müəyyən etməyi öyrəniblər. Araşdırmanın nəticələri "Pharmaceutics" jurnalında dərc olunub. Glioma - beyin şişinin ən ağır növlərindən biridir. Onu erkən mərhələdə müəyyən etmək və hətta simptomlar başlayandan sonra diaqnoz qoymaq çətindir. Bu tip xərçəng adətən şiş çıxarıldıqdan sonra aparılan histoloji müayinə ilə təsdiqlənə bilər.**

Tomsk Dövlət Universitetinin alimləri isə qandakı biomarkerlərə əsaslanaraq bu xəstəliyi müəyyən etmək üçün yeni qeyri-invaziv üsul hazırlayıblar. Onlar bunun üçün Raman spektroskopiyasından istifadə ediblər. Bu üsul qanda şiş hüceyrələri tərəfindən ifraz olunan spesifik kimyəvi birləşmələri yüksək dəqiqliklə aşkar etməyə imkan verir.

Alimlərin sözlərinə görə, yeni ixtiradan gələcəkdə digər şişlərin aşkarlanmasında da istifadə etmək olar.

# Britaniyalı yeniyetmənin beyninə implant yerləşdirilib




**Britaniyalı yeniyetmə Oran Noulson epilepsiya ilə mübarizə aparmaq üçün beyninə neyrostimulyator taxılan ilk xəstə olub. Əməliyyat hələ ötən ilin oktyabr ayında Londonun "Great Ormond Street" xəstəxanasında aparılıb. Ağır epilepsiya xəstəliyindən əziyyət çəkən Oranın o zaman 12 yaşı var idi, indi isə 13 yaşı tamam olub. Həkimlər əməliyyatı nəticələr bəlli olandan sonra açıqlayıblar. O vaxtdan bəri Oranın qıcolmaları 80% azalıb. Uşağın anası oğlunun daha xoşbəxt olduğunu və həyat keyfiyyətinin xeyli yaxşılaşdığını bildirib.**

Onun sözlərinə görə, epilepsiya Oranın bütün uşaqlığını əlindən alıb. Bəzən qıcolmalar zamanı oğlan yerə yıxılır və huşunu itirir, vaxtaşırı nəfəsi belə dayanır, ona təcili reanimasiya üçün dərman lazım olurdu. Aparat beyinə sabit cərəyan nəbzini çatdıraraq qıcolmaların qarşısını alır. O, epileptik tutmalara səbəb olan siqnalları pozur. Cihaz simsiz qulaqlıqlar vasitəsilə enerji yığır.

# Norveçdə "Quran məktəbləri" qadağası



**Norveç övladlarını xaricdəki dini məktəblərə göndərən valideynlər üçün cəzalar nəzərdə tutan qanunvericiliyə dəyişikliklər hazırlayır. Xüsusi hüquq komitəsi üç il ərzində immiqrant ailələrdən olan uşaq və gəncləri "öz valideynlərindən daha yaxşı qorumaq üçün" qanunvericiliyin dəyişdirilməsinin lazım olub-olmadığını araşdırıb. Əmək və İnteqrasiya Nazirliyinə araşdırmaların nəticələri və təklifləri özündə əks etdirən 500 səhifəlik hesabat təqdim edilib. Nazir Tonje Brenna qeyd edib ki, təkliflər "son dərəcə əhəmiyyətlidir" və gecikmədən onlara əməl edilməlidir.**

## Yeyib-içdi, 15 il sonra hesabı ödədi

**İtaliyada fəaliyyət göstərən barladan birinin müştərisi etdiyi sifarişin hesabını nə az, nə çox düz 15 il sonra ödəyib.**

2008-ci ildə bir kişi öz dostları ilə İtaliyanın Trento şəhərindəki Simposio barına gəlib. Onlar yeyib-içdikdən sonra hesabı ödəmədən qaçıblar.

"15 il əvvəl şənbə gecəsi bura gəldim və dostlarımla bir neçə stəkan şərab içdim. Zarafat kimi pulu vermədən qaçdıq. Buna görə də o gündən bəri barınıza ayaq basmadım", - deyə həmin müştəri bar sahibi Andrea Bosizioya ünvanladığı məktubunda belə yazıb.

Məktubun müəllifi müəssisənin sahibindən üzr istəyib və zərfin içərisinə 30 avro qoyub. Bu məbləğin 2008-ci ildə ödəməli olduğu məbləğdən dörd dəfə çox olduğunu qeyd edib. "Üzrümü qəbul edib-etməməyinizə qərar verməyi sizə buraxıram. Yenə görüşəcəyik, çünki indi başımı qaldırıb çox rahatlıqla bara qayıdacağam", - deyə məktub sahibi yazıb. Bar sahibi Bosizio isə öz növbəsində bu hadisəni 18 illik iş fəaliyyətində ən yadda qalan xatirə adlandırıb. Məktubun yazılması ona olduqca yaxşı təsir bağışlayıb və özünün də dediyi kimi, indi o qarşısında 2 qədəh şərab məktub müəllifinin yolunu gözləyir.

## Bunları bilirsinizmi?

* Dünyanın ən sürətli böyüyən bitkisi bambuk, bir gündə 90 sm qədər uzanır.
* Ortalama bir aysberqin ağırlığı 20 milyon tondur.
* 18 fevral 1979-cu ildə səhra çölünə qar yağmışdı.
* Dünyanın ən böyük şəkər ixracatçısı Kubadır.
* Eskimo dilində qar yağmurlarının fərqlərini təsvir etmək üçün istifadə edilən iyirmidən çox söz vardır.
* Ən yaxın olduqları nöqtədə, Rusiya və Amerikanın bir-birilərinə uzaqlıqları dörd km deyil, daha azdır.
* Səudiyyə Ərəbistanında heç çay yoxdur.
* Monakonun milli orkestri ordusundan daha geniş bir heyətə malikdir.
* Zürafələr üzə bilməz.
* Ortalama olaraq, Amerikada gündə üç ədəd cinsiyyət dəyişdirmə əməliyyatı reallaşmaqdadır.
* İnsan beyninin 80%-i sudur.
* Amerikada hər saat 40 adam xərçəngdən həyatını itirir.
* İrəli doğru bir addım atıldığında, insan bədənindəki 54 əzələ çalışar.
* İnsan beyninin ortalama ağırlığı 1.3 kg.
* Birinin üzünü xatırlamaq üçün beynin sağ tərəfi istifadə edilər.
* Yetkin bir insan gündə ortalama olaraq 23 min dəfə nəfəs alar.
* Qaşları yuxarı qaldırmaq üçün 30 əzələni hərəkətə keçirmək lazımdır.
* Kişilər qadınlara görə on qat daha çox rəng koru olurlar.
* Uşaqlar baharda daha çox böyüyür.
* Ortalama bir birə öz böyüklüyünün 150 qatı yüksəkliyə tullana bilir.
* İnsanlar bədənlərində 300 ədəd sümüklə doğulurlar amma yetkin olduqlarında bu ədəd 206 ya düşür.
* Hər dörd Amerikalıdan biri mütləq televiziyada görünür.
* Kəpənəklər ayaqlarıyla dad alırlar.
* Sarışınların əsmərlərə görə daha çox saçı vardır.
* İllərə görə ortalama alındığında, hər il eşşəklər tərəfindən öldürülən insanların sayı təyyarə qəzalarında ölənlərin sayından daha çoxdur.
* Qadınlar kişilərə nisbətlə iki qat çox göz qırpar.
* İnsan bədənindəki ən güclü əzələ dildir.
* Gözləri açıq saxlayaraq asqırmaq qeyri-mümkündür.
* İnsanlar beyinlərinin yalnız 10 % - ni istifadə edərlər.
* Fillər tullana bilməyən tək məməlidir.
* Elektrikli kürsü bir stomatoloq tərəfindən icad edilmişdir.
* Bir qarışqanın qoxu hiss etmə qabiliyyəti ən az bir itinki qədər inkişaf etmişdir.
* Yetkin bir ayı bir at qədər sürətli qaça bilər.
* Siçanlar qusa bilməz.
* Asqırdığınız zaman, ürəyiniz də daxil olmaq üzrə bütün bədən funksiyalarınız bir an üçün dayanar.
* Gözlərimiz heç bir zaman böyüməz. Amma burnumuz və qulaqlarımızın böyüməsi əsla sona çatmaz.

# Şimali Koreya Seula yenə zibil göndərdi



**Şimali Koreya yenidən zibillə dolu hava şarlarını Cənubi Koreyaya yollayıb. Bu barədə Cənubi Koreya hakimiyyəti məlumat yayıb. Şimali Koreyadan gələn zibil şarlarının Seulun hava məkanına daxil olduğu təsdiqlənib. Eyni zamanda Cənubi Koreya hakimiyyəti vətəndaşlardan şarların düşdüyü yerlərə yaxınlaşmamağı xahiş edib. Qeyd edək ki, ilk dəfə iyunun 9-na keçən gecə Şimali Koreya qonşu ölkəyə sarı 330-a yaxın zibil şarı buraxıb. Onlardan 80-dən çoxu hədəfə çatıb, o cümlədən 30-u Seula düşüb.**

Səhifəni hazırladı: SELCAN


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Lisenziya N: B 114
SAYI: 1.500